**EMİN MAHMUDOV**

# QEYB OLMUŞ SƏSLƏR



# QEYB OLMUŞ SƏSLƏR

Deyəsən o, mənim pilləkəndən gələn ayaq səslərimi eşitməmişdi. Hətta qapının səsinə də çevrilmədi. Mən üst-başımın qarını çırpmaq bəhanəsi ilə dəhlizdə qəsdən ayaqlarımı bərk-bərk yerə vurdum, sonra paltomu da silkələyib mıxdan asdım. Ancaq Salman görünür ki, yenə heç nə eşitmədi. O, paltosuna bərk-bərk bürünərək şüşəbənddə arxası otağa əyləşmişdi. Mən gəlişimi heç elətdirmək üçün boğazımı arıtlayıb ucadan deyindim:

- Martda da belə soyuq olar. Elə bil qış geri qayıdıb.

Salman yenə də qımıldanmadı. O, şüşəbəndin pəncərəsindən harasa baxırdı. Yəqin o, maraqlı bir şey görmüşdü. Fikrini dağıtmaq istəmədim. Qaloşlarımı çıxarıb sakit addımlarla arxadan ona yanaşdım.

Heyrətim bir az da artdı. Pəncərənin şüşələrin başdan-başa buz naxışları ilə örtülmüşdü. Belə şüşədən heç yeri görmək olmazdı. Bəs Salmanın fikrini cəlb edən nə idi? Mən ona elə yaxınlaşmışdım ki, az qala çənəm onun çiyninə toxunacaqdı, o gözlərini zillədiyi şüşəyə bir də diqqət yetirdim. Arxayın oldum ki, bu şüşədən o heç nə görə bilməz.

— Nə var, nə yox, Fərhad, çöl bərk soyuqdur?

Mən ucadan güldüm:

— Rəhmətliyin oğlu, — dedim, — stulda elə oturmusan ki, elə bildim ya donmusan, ya da mənimlə qara-dinməz oynayırsan.

Salmanın üzündə kiçik bir əzələ belə tərpənmədi. Deyəsən o, mənim nə dediyimin heç fərqinə də varmadı.

Odur ki, səsimin ahəngini dəyişərək soruşdum:

— Yaxşı, o şüşədə nə görmüsən ki, səhərdən gözlərini oradan çəkmirsən?

Salman buz bağlamış pəncərə şüşələrini göstərib mülayim səslə dedi:

— Görürsənmi?

Mən üçüncü dəfə, özü də çox diqqətlə şüşələrə baxdım. Qəti arxayın oldum ki, buradan həyət görünmür. Buz bağlamış şüşədə də gözə dəyəri elə bir şey yox idi.

Mən sualedici nəzərlərimi Salmana tərəf çevirəndə o, yenidən şüşələri göstərdi:

— Təbiətin bu nadir möcüzəsinə nə deyirsən?

Daha səbrim tükəndi:

— Hansı möcüzəni deyirsən, ay qardaş, məni lap dilxor elədin ki?

— De görüm hansı rəssam, hansı nəqqaş belə incənaxışlar sala bilər. Bir fikir ver, gör bu yarpağa oxşayan hər naxışda necə mükəmməl bir simmetriya var.

— Mən Salmanın dediklərini başımın hərəkəti ilə təsdiq etdim. Sonra da Salmanın qolundan yapışıb:

– Qardaş, bir az da bu buzxanada otursaq ikimizdə sətəlcəm olarıq, — dedim. — Gəl sobanı yandıraq, otağı yaxşı-yaxşı qızdıraq. Sonra kefin istəyən qədər belə söhbətlərdən eləyərsən.

– Salman istər-istəməz mənimlə razılaşdısa da hərəkətlərindən başa düşdüm ki, onu həyəcanlandıran belə bir məsələyə qarşı mənim laqeyd olmağım dostuma toxunmuşdur. Ancaq Salman bunu biruzə vermədi, nəzərlərini döşəmədən ayırmayaraq köksünü ötürüb sanki birdən-birə nəyi isə xatırladı:

– hə, sobanı yandırmaq pis olmaz, — dedi, — belə havada çərəzin ayrı ləzzəti var. Qoy bir az qozdan, şabalıddan gətirim.

Ayağa qalxıb mətbəxə keçdi. Az sonra sobanın üstündə qovrulan şabalıdları əllərimiz yana-yana soyur, bir-birimizə göz vurub həvəslə yeyirdik.

Salman mənim əlavə sualımı gözləmədən dedi:

– Anam Bakıya gedib, böyük qardaşımın yanına, evdə tək qalmışam. Vaxtımın çoxunu elmi işə sərf eləyirəm.

Bu sözlərlə o, kitab şkafının alt gözündən kvarsa bənzəyən bir parça mineral çıxartdı və mənə tərəf uzadaraq dedi:

– Al bax, Fərhad, gör bu daşın üstündə necə bir mənzərə həkk olunub.

Mən ağır mineral parçasını Salmandan alıb o tərəf-bu tərəfə hərlədim. Onun yastı tərəfində meşə, meşənin içində də bir dağ görünürdü. Şəkil tutqun idi. Bununla belə onun həqiqi fotoşəkil olmasına şübhə yox idi.

Mineral parçasını dostuma qaytardım.

– Eh, görəsən dünyada daha nə qaldı ki, fotoqraflar öz əməllərini onun üstündə sınamasınlar. Birisi boşqabın içinə şəkil çəkir, o birisi pərdəyə, bir başqası qalstuka. hardasa oxumuşdum ki, hələ coraba da şəkil salanlar var.

Salman səssizcə gülərək başını buladı:

– Səni inandırıram ki, bu daşa heç bir fotoqrafın əli toxunmayıb. Bu şəkli təbiətin özü buraya həkk eləyib.

Tələsik daşı Salmandan aldım, bir də gözdən keçirdim. Dostum mənim baxışlarımın inamsız olduğunu duyaraq sözə başladı.

— Qardaş, mən bu mineral parçasını Çıraqdərənin o üzündəki Sarıqayadan tapmışam. Orda belə daşlar çoxdur, havalar açılandan sonra bir yerdə gəzə-gəzə ora gedərik. Özün də görəcəksən ki, bu şəkilli daşlardan həmin qayada istədiyin qədər var.

Mənim deməyə daha bir sözüm qalmadı.

— Təbiətin yaratdığı belə foto şəkillərinə dünyanın hər bir ölkəsində rast gəlmək olur, — deyə Salman davam etdi. — Axı, əslində burada heç bir möcüzə yoxdur, Fərhad. Məgər foto cürbəcür kimyəvi duzların köməyi ilə yaradılmırmı? Belə duzlar təbiətdə azmı tapılır? Bunun üçün əlverişli şərait olmalıdır ki, şəkil də alınsın, vəssalam.

Salmanın söhbəti məni yaman tutmuşdu. Öz məlumatımın azlığından xəcalət çəkərək heç səsimi də çıxartmırdım. Dostum mənim sıxıldığımı duyaraq tez söhbətin ahəngini dəyişdi:

— Görürsən, Fərhad, təbiət həm yaxşı nəqqaş, həm də bacarıqlı fotoqrafdır. O, həm də musiqişünasdır., Küləyin uğultusu, dəniz ləpələrinin səsi, göy gurultusu onun musiqisidir. Təbiət hələ heykəl yonmağı, mağaralara minbir bəzək vurmağı da bacarır. Ancaq məni maraqlandıran tamam başqa şeylərdir.

Bu sözlərlə Salman sobaya bir-iki odun atıb kitab şkafına tərəf getdi. Oradan qalın bir kitab seçib tez yanıma qayıtdı:

— Bax, Fərhad, bu «yer üzündə həyatın yaranması və inkişafı» kitabıdır. Onu açsan içində yüzlərlə cürbəcür heyvan şəkli görərsən. Əlbəttə, bu heyvanların çoxusu iki yüz, üç yüz milyon il bundan qabaq yer üzündə yaşayıb, sonra da məhv olub gedib. Öz aramızdır, o vaxt nə fotoqraf vardı, nə də rəssam ki, bu Heyvanların şəklini çəkəydi. Bəs bu heyvanlar haqqında müfəssəl məlumatı bizə verən kimdir? Əlbəttə təbiət. Bunlardan birinin skeleti salamat qalıb, bir başqasının gil üzərində ləpirləri daşa dönüb, ayrı birisi torpağın altında çürüyüb gedib. Lakin onun bədəni

formasında yer boş qalıb. Bax bunları sadalamaqda onu demək istəyirəm ki, təbiət oxunmağa ehtiyacı olan bir kitabdır. Ancaq mən təbiətdən şəkilləri yox, qeyb olmuş səsləri oxumaq istəyirəm.

— Necə yəni qeyb olmuş səsləri? — deyə inamsızlıqla Salmanın üzünə baxdım.

Salman nə isə deməyə hazırlaşırdı ki, mətbəxdə qaynayıb daşan çaydanın səsi eşidildi. Dostum «bağışla» dedi, stulu kənara çəkib mətbəxə qaçdı. Bir neçə dəqiqə sonra biz çay içə-içə söhbəti davam etdirdik.

— Fərhad, məni bir məsələ çoxdan düşündürürdü,— deyə Salman dilləndi. — Əgər canlıların şəkli, forması təbiətdə izlər buraxa bilirsə, nə yçyn onların səsləri belə iz buraxmasın? Doğrudur, səs elə şey deyildir ki, o daşa dönsün, ya da onu mumyalayıb saxlamaq mümkün olsun. Ancaq səs də myəyyən şəraitdə təbiətdə qala bilər.

Mən Salmana göz vurub dedim:

— Uşaq vaxtı Münhauzenin sərgüzəştləri kitabında oxumuşdum ki, bir dəfə Münhauzen bərk şaxtalı havada araba ilə yol gedirmiş. Nədənsə xatirinə tütək çalmaq düşür. O, tütəyi nə qədər üfürürsə səs çıxmır. Münhauzen evə yetişib tütəyi sobanın yanından asır, özü də soyunur. Bu vaxt tütək birdən-birə səslənib gözəl havalar çalmağa başlayır. Heç demə çöldə hava şaxtalı olduğundan tütəyin səsi donubmuş.

Deyəsən mənim bu yersiz zarafatım Salmana toxundu. Nə isə o, heç gülmədi. Köksünü ötürüb başını buladı. Əllərini bərkdən bir-birinə vurdu:

— Bax, görürsən, Fərhad, bu səs bir dəfə eşidildi, sonra yox olub getdi. Amma evdə maqnitafon olsaydı, bu səsi yazıb saxlamaq olardı. Lap on ildən sonra da maqnitafonu qursan dərhal mənim əl çalmağımı eşidərdin.

Dostumun sözləri məntiqli görünsə də mən yenə etiraz etməyə bəhanə tapdım:

— Ay pir olmuş, — dedim, — maqnitafon insan əməlidir, Özü də...

0, mənim sözümü yarımçıq kəsib dedi:

— Bəs fotoaparatı insan yaratmayıb? Bəs təbiət niyə şəkil çəkə bilsin, amma səs yaza bilməsin?

Daha heç nə demədim. Başımın hərəkəti ilə Salmanın dediklərini təsdiq edərək ona axıradək qulaq asmağı qərara aldım.

— İnsanlar səsi maqnitafon lentinə də yazırlar, kino lentinə də, patefon valına da. Beləliklə indi istədiyimiz səsi yazmaq, sonra da istənilən vaxt təkrar etmək üçün texniki vasitələr vardır. Bəs təbiət keçmişdə belə vasitələrdən birinə malik ola bilməzdimi? Demək, qədim dinozavrların, uçan kərtənkələlərin daşa dönmüş skeletlərini tapmaq mümkün olduğu kimi, onların təbiətdə, haradasa gizlənmiş səslərini də tapıb aşkara çıxarmaq olar.

— Yaxşı, bu daşa dönmüş heyvanların səslərini haradan tapmaq fikrindəsən?

—Məgər cürbəcür süxurlar, minerallar belə səsləri özlərində saxlaya bilməzmi? İndi kələfin ucu iki yerdə axtarılmalıdır. Əvvələ öyrənmək lazımdır ki, hansı süxurlar səsi özündə toplamaq xassəsinə malikdir. Sonra da həmin səsləri oradan qovub çıxarmaq yçyn texniki vasitə tapılmalıdır. Mən Salmana öz işində müvəffəqiyyətlər diləyib ondan ayrılandan sonra nədənsə yol uzunu elə hey qeyb olmuş səslər haqqında düşünürdüm. həmin gecə yuxuda da mən Salmanın üzünü görmədən onun səsini eşidirdim.

Bu söhbətimizdən sonra Salmanı bir də görə bilmədim. Anası Peykər xaladan öyrəndim ki, Salman yenə də Bakıya qayıdıb. Yayda eşitdim ki, Salman bir dəstə turistlə Qafqaz dağlarına səyahətə çıxıb. Daha sonra onunla əlaqəmiz lap kəsildi.

Salmanla ikinci görüşümüz birinci söhbətdən iki il yarım sonra, özü də çox qəribə şəraitdə oldu.

Sentyabrın əvvəllərində Bakıya gəlmişdim. Küçədə təsadüfən tanışlardan birilə rastlaşdım. Xoş-beşdən sonra Salmanı xəbər aldım. Akademiyanın fizika institutunda elmi işlə məşğul olduğunu öyrənib

birbaş ora yollandım. Qapıda növbə çəkən qadın bildirdi ki, Salmanı ancaq nahar fasiləsində görmək olar.

Gözləməyi qərara aldım. Kürsüdə əyləşib qəzet oxumağa başladım. Birdən kiminsə yanımda dayandığını hiss etdim. Gözlərimi qəzetin səhifəsindən ayırmamış tanış bir səs eşitdim:

— həmişə sən gələsən, ay Fərhad, sən hara, bura hara?

Bu adamın kim olduğunu və onunla necə görüşdüyümüzü təsvir etməyə yəqin ki, ehtiyac yoxdur.

Salman məni özünün işlədiyi laboratoriyaya apardı. Burada onun özündən başqa iki nəfər ağ xalatlı assistent də vardı. Ortalığa uzunluğu üç metrə çatan bir cihaz qoyulmuşdu. Cihazın əsas hissəsi roliklər üzərində hərəkət edən şəffaf lentdən və ona doğru əyilmiş müxtəlif linzalardan, konusvarı çıxıntılardan ibarət idi. Lentin üstünə torpaq qatı yayılmışdı. Assisentlərdən biri əlində zərrəbinlə pinset tutaraq xırda torpaq parçalarının yerini ehtiyatla dəyişirdi. O, ayağa qalxandan sonra ikinci assistent mənə tanış olmayan bu aparatda nəyi isə burub düzəltdi. Sonra otaqın işığını söndürdü. Pəncərələr qara pərdə ilə örtüldüyündən otağa zülmət çökdü. Elə bu an Salman qulağıma pıçıldadı:

– Bir adamın danışqan olmadığını bildirmək üçün deyirlər ki, o torpaq kimi laldır. Ancaq indi özün görəcəksən torpağı da danışdırmaq olur.

Salman düymələrdən birini basdı. Üzərinə torpaq yayılmış lentə gözqamaşdırıcı işıq zolağı düşdü. Daha sonra lent yavaş-yavaş işığın qabağından keçməyə başladı. Cihazın böyryndəki reproduktordan əvvəlcə gülək uğultusunu, sonra isə dəniz ləpələrinin gurultusunu xatırladan səslər ucaldı. Bir qədərdən aslan nərəsi eşidildi. Həmin nərəyə bənzər başqa bir səs də ona qoşuldu. Bir azdan bu səslər fınxırtı və bağırtılarla əvəz olundu. Deyəsən iki güclü yırtıcı heyvan ölüm-dirim döyüşünə girişmişdi. Birdən qalibin nərəsi, məğlubun zingiltisi eşidildi. Yenə külək uğultusu, qayalara çarpan dalğaların səsi...

Sanki mən sənədli filmə baxırdım. Ancaq fərq bunda idi ki, burada şəkilləri əks etdirən ekran yox idi. Mənim bu səslərdən aldığım təəssüratı dostum belə tamamladı:

– Vaxtı ilə Qafqaz ərazisi başdan-başa dənizlərlə örtülü idi. Sonra bu dənizlərin ortasından Qafqaz dağları baş qaldırmağa, dəniz geriyə çəkilməyə, öz yerini yaşıl meşələrlə örtülü olan dağlara verməyə başladı. Dəniz çəkildikcə yeni dağlarda müxtəlif heyvanlar özünə məskən saldı. Bax indi qulaq asdığın bu səslər qədim mağara aslanının qılıncdiş pələnglə döyüşü idi.

– Axı bu torpağı hardan götürmüsən? — deyə həyəcanlı bir səslə xəbər aldım.

Salman sanki öz qələbəsindən sevinib təbəssümlə dedi: Məsəl var ki, axtaran tapar. Mən də özündə səs toplayan süxuru uzun müddət axtardım. Nəhayət, yoldaşlarımın köməyi ilə onu tapdım. Bax indicə səsini dinlədiyin bu süxur Böyük Qafqaz dağlarındakı bir mağaradan götürülmüşdür. Görürsən, lal torpağın özü də qeyb olmuş səsləri necə qayğı ilə qoruyub saxlayır.

Xeyli söhbətdən sonra mən Salmanla görüşüb ayrıldım. Ancaq laboratoriyada eşitdiyim o əsrarəngiz səsləri ömrüm boyu unutmayacağam.

Budur, kənd küçəsi ilə fermaya doğru addımlayıram. Dünəndən yağan çiskin yağış kiçik gölməçələr yaratmışdır. Mən yeridikcə yaş torpaq ayağımın altında fırçıldayır. Torpağın səsinə diqqətlə qulaq asıram. Ancaq düzü heç nə başa düşmürəm. Kim bilir, bəlkə də min illər, bundan sonra bu cansız torpaq zəhmətkeş insanların bugünkü fədakar işini, onların fərəhli əmək nəğməsini gələcək nəsillərə yetirəcəkdir.



## QƏRİBƏ YADDAŞ

O, redaksiyamıza gələndə heç on səkkiz yaşı da tamam olmamışdı. Ortaboylu, arıq və qarayanız bir qız idi. Xarici görkəmində elə bir yadda qalan cəhət yox idi ki, ayrıca qeyd etməyə dəysin.

Yaxşı yadımdadır, qəzetimizdə elan verəndən üç-dörd gün sonra o, yanıma gəldi. Ötəri nəzərlə məni süzüb baxışlarını döşəməyə dikdi. Utancaq əda ilə salam verəndən sonra üzümə baxmadan dedi:

— Katib sizsiniz, eləmi?

— Bəli mənəm.

— Sizə gərək ki, makinaçı lazımdır, qəzetinizdə

oxudum...Ona «hə» cavabını verməzdən qabaq işgüzar bir maraqla qızı başdan-ayağa süzdüm. Əynindəki paltar qəttəzə olsa da köhnə dəbdə tikilmişdi. Qısa hörüklərini kürəyinə atmışdı. Danışarkən çalışırdı ki, adamın üzünə baxmasın. Xülasə ilk dəfə böyük şəhərə ayaq basan utancaq bir kənd qızı idi. Onun yaxşı bir makinaçı olmasına nədənsə məndə inam yaranmadı.

— Başqa yerdə işləmisinizmi?

O, mənim sualıma tutula-tutula cavab verdi:

— Bir-iki ay... Cəmi bir-iki ay rayon qəzetində işləmişəm. Makinaçılıq kursunu bitirmişəm. Sonra naxoşladım. Xəstəxanaya düşdüm. İndi sağalmışam. İnstitutda oxuyuram. İşləməyə çox həvəsim var.

Ondan bir-birinin ardınca bu qədər söz eşitdiyimə sevindim. «Demək danışmağı bacarır, kerək əl qabiliyyəti necədir?» fikri ilə əlimin altındakı düyməni basdım. Şöbə müdiri kandarda görünən kimi qızı ona göstərib dedim:

— Məmmədxan, bu qızı yazı makinasının yanına apar. Qoy qəzetin növbəti nömrəsi üçün bir-iki səhifə material yazsın. Görək yazı sürəti necədir?

Doğrusu tələsdiyimdən heç qızın adını da xəbər almadım. Arxayın idim ki, yarım saat sonra Məmmədxan yanıma gəlib başını bulayacaq, «sürəti çox aşağıdır, hələ hərflərin yerini də tanımır. Qoy başqa bir idarədə işləsin», deyəcək.

Ancaq az sonra qız özü qapıda göründü. Mətbəəyə göndərmək üçün hazırlanan materiallardan birini çap edib gətirmişdi. Diqqətlə yoxladım. Demək olar ki, səhv heç gözə dəymirdi. Elə bu zaman Məmmədxan da gəlib çıxdı. O, sevinə-sevinə dedi:

— Nilufər xanım təcrübəli makinaçıya oxşayır, sürəti yaxşıdır. Özü də səliqəli yazır. Məncə onu işə götürə bilərik.

— Ancaq on beş gün imtahan şərti ilə, — deyə Məmmədxanın sözünü tamamladım.

Həmin gündən rəsmən əmr ilə Nilufər Şükürovanı redaksiyaya makinaçı qəbul etdik. Zahirən nəzəri cəlb etməyən bu qarayanız qız az müddətdə öz işi ilə hamının rəğbətini qazandı. O, boş vaxtlarında mütaliə ilə məşğul olardı. Əməkdaşlar Nilufərin qiyabi oxuduğunu bildiklərindən heç vaxt onu ikinci dərəcəli işlərlə yormaz, bacardıqları qədər kömək edərdilər. Nilufərin yazı sürəti də, işə can yandırması da hamımızın

xoşuna gəlirdi. Ancaq o, təkcə bununla o qədər şöhrət qazana bilməzdi. Onun xarici görünüşü kimi işgüzarlığında da elə bir əcaib şey yox idi ki, ayrıca qeyd etməyə dəysin. Əgər onun qəribə yaddaşı olmasaydı...

Bir də görürdün materialı çap etdiyi yerdə Nilufər əlini dayandırıb deyir:

— Görünür bu məqaləni yazanda ya yorulmusunuz, ya da tələsmisiniz. Bax. bu cümləni dörd gün bundan əvvəl yazdırdığınız baş məqalədə işlətmisiniz.—Ya da görürdün çap edib qurtardığı bir məktuba imza yazdığı zaman Nilufər əməkdaşa tərəf dönüb başını tərpədir:

— Bu məktub qəzetimizdə gedib. Ancaq başqa adamın imzası ilə, özü də on üç gün bundan əvvəl. Onun müəllifi filankəs idi. Görünür bu məsələni iki adam qələmə alıb.

Nilufərin dedikləri həmişə yerli-yerində düz çıxırdı. Nə qədər fikir verirdimsə, onun bircə dəfə də səhv etdiyini görə bilmirdim. Ömrümdə ilk dəfə idi ki, belə iti yaddaşlı bir adama rast gəlmişdim. Usta bir sehirbaz kimi, o, öz yaddaşı ilə hamımızı əfsunlamışdı. Heç kəsin ona etiraz etməyə cürəti çatmırdı. Biz yəqin etmişdik ki o, heç zaman səhv etmir. Əgər onun yanında böyük bir poemanı ucadan oxusaydın, sonralar istədiyin vaxt o sənə şerin hamısını başdan ayağa əzbər deyə bilərdi.

Əlbəttə, jurnalisti yaddaş itiliyi ilə təəccübləndirmək o qədər də asan deyildi. Axı, bizim işimizin xüsusiyyəti belədir. Həyatda nə qədər dərin zəkalı, dərin yaddaşlı adamlarla üz-üzə gəlirik. Bakının qoca sakinləri iyirminci illərdə riyaziyyatçı Şişkinin məşhur Araqonu sirk səhnəsində necə yarışa çağırdığını indi də xatırlayırlar. Onlar bikvadrat tənlikləri dördhədli ədədlərlə əvəz etməklə şifahi məsələlər həll etmişdilər...

Ancaq Nilufər öz təvazökarlığı ilə fərqlənirdi. O, tərifli sözləri heç xoşlamırdı.

Mən öz-özümə söz vermişdim ki, necə olursa-olsun bu qeyri-bəşəri hafizənin səbəbini öyrənim. Ancaq bir hadisə məni qabaqladı.

Payızın son günlərindən biri idi. İşdən yenicə qayıdıb divana uzanmışdım. Bayırda külək ara vermədən uğuldayır, yarpağını tökmüş budaqlar şikayətli bir səslə inildəyirdi. Mən qazın üstündəki çaydanın zümzüməsinə qulaq asa-asa mürgüləyirdim.

Bu zaman telefon cingildədi. Dəstəyi qaldırdıqda qulaqlıqda tanış olmayan bir kişi səsi eşidildi:

– Bağışlayın, sizinlə danışan şəhər xəstəxanasının baş həkimidir. Bir məsələni öyrənmək üçün sizə zəng vurmuşam. Deyin görüm Fərrux Səmədov sizin idarədə işləyirmi?

– Bəli, bəli, — deyə tələsik cavab verdim. — O, redaksiyamızın xidmətçisidir. Nə olubdur ki?Narahat olmayın, yoldaş Rzayev, — deyə həkim mülayim səslə sözünə davam etdi, — bu gün sizin xidmətçiniz böyük bir igidlik göstərib. Yanan mənzildən iki körpəni xilas eləyib. Özünə o qədər də ağır bir zəfər toxunmayıb, üz-gözü azca qarsalanıb. Ancaq pencəyi tamam yanıb.

– Pencəyindən zərər yoxdur, deyin görüm canı-başı sağ-salamatdırmı?

– Yoldaş Rzayev, dedim ki, özü sağ-salamatdır.Ancaq pencəyinin cibində qəzet materialları varmış, onlar tamam-kamal yanıb.

– Necə?..

Bir an əvvəl Fərruxun igidliyinə qibtə edirdim.Ancaq telefonda eşitdiyim son sözlər bu igidliyi nəzərimdə heçə endirdi. Axı bir saat sonra mətbəəyə gedib qəzeti çap yçyn oxumalıydım. İndi başıma nə çarə qılım? Materiallar odda yanıb. Tərs kimi redaktor da mə'zuniyyətdə idi.

Mən nə etdiyimin fərqinə varmadan tələsik redaksiyaya zəng vurdum. Dəstəyi Nilufər götürdü. Ondan öyrəndim ki, redaksiyada heç kəs qalmayıb. Mən özümdə vəziyyətin belə olacağını bilirdim. Axı, saat səkkizə işləyirdi.

Məsələnin nə yerdə olduğunu Niluferə başa saldım. Gözlədiyimin əksinə olaraq o, qətiyyən təşvişə dyşmədi. Elə bil heç bir şey olmamışdı, arxayın-arxayın dedi:

— Rəhim müəllim, siz əməkdaşları tapmağa çalışın. Mən də cəhd edərəm ki, yadımda qalan bəzi şeyləri yazım.

Mən makinaçıya təşəkkür etməyi belə unudaraq dəstəyi asdım. Tələsik maşına əyləşib əməkdaşların ardınca yollandım. Xeyli axtarışdan sonra onların birini kinodan, o birini vağzaldan, üçüncüsünü şəhər parkından tapıb redaksiyaya yollandım. Bir saat sonra başı lovlu özümü redaksiyaya yetirdim. Hər şey gözlədiyimdən daha yaxşı qurtardı. Otağıma keçib işığı təzəcə yandırmışdım ki, şöbə müdirləri makinada çap olunmuş hazır materialları oxumaq üçün mənə verdilər. Bunlar bir neçə saat əvvəl xidmətçinin mətbəəyə apardığı materialların eyni idi. Professor Qüdrətlinin «Ən yeni radioaktiv müalicə üsulları» məqaləsi, şöbə müdiri Mammədxanın «Dəniz buruğunda bir gün» oçerki, beynəlxalq vəziyyətə aid icmal, iki şer və dörd oxucu məktubu.

Mən materialları qovluğa yığıb tələsik işığı söndürdüm. Qapıdan çıxanda Məmmədxan məni dayandırdı:

– Sizə, bir-iki söz demək olarmı?

– Sabah deyərsən, qəzet gecikir, — deyərək tələsik maşına qalxdım.

Hər şey gözlədiyimdən yaxşı qurtardı. O gün qəzetimiz vaxtında çıxdı.

Səhəri gün işə gələndə Məmmədxan məni qabaqladı:

– Gərək Nilufər xanıma heç olmasa bir yazılı təşəkkür verək, — dedi, — O, bizi dardan qurtardı.

Mən mübahisəsiz-flansız onunla razılaşdım.

– Düz deyirsən, Məmmədxan, Nilufər xanım bizə əməlli-başlı kömək etdi. İş vaxtı olmaya-olmaya...

Məmmədxan mənim sözümü kəsdi:

— Heç məsələ iş vaxtında deyil, Rəhim müəllim. Nilufər materialların hamısını dünən axşam tək başına yazıb. Biz redaksiyaya yığışanda hər şeyi hazır gördüm.

— Yəqin orijinallar Nilufərdə qalıbmış, hə?

— Xeyr, Rəhim müəllim. Orijinallar stolların siyirməsində, açar da bizim cibimizdə.

— Bəs onda bir məni başa sal görüm, Nilufər nəyin üzündən bu materialları yazıb? havadan yazmaq olmaz ki?

— Xeyr, havadan yox, öz başından yazıb. Onun yaddaşına özünüz bələdsiniz.

— Necə? Necə? — deyə mən siyirməni açmaq üçün cibimdən çıxardığım açar dəstəsini stolun üstünə atıb ayağa qalxdım.

- Məmmədxan heç nə olmayıbmış kimi astadan dedi:

— Axı, siz onun dərin yaddaşına, hafizəsinə...

— Canım, hafizə öz yerində. Bu qədər məsuliyyətli yazıları bir qızın yaddaşının öhdəsinə buraxmaq olarmı?

Mən danışdıqca öz sözlərimdən dəhşətə gəlirdim. Axı, dünən axşam Nilufər 20 səhifə yazı yazmışdı. Onlarda nə qədər rəqəm, neçə-neçə xüsusi elmi ifadələr, yer və adam adları vardı. Yox, yox, bu qədər şeyləri əzbər yadda saxlamaq olmazdı.

Başımı əllərimin arasına alaraq gözlərimi yumdum. Xəyalımda yenidən qəzetin üçüncü səhifəsi canlandı. Səhv getmiş adlar, rəqəmlər, elə bil sətirlərin arasından mənə baxıb gülüşürdülər.

Məmmədxan bir dəstə məktubu xışıltı ilə stolun üstünə səpələdi. Mən tələsik onları çəngələyib götürdüm. Acgöz bir maraqla qəzeti açıb məktublarla tutuşdurmağa başladım.

Mən ilk növbədə rəqəmləri, adları bir sözlə qəzetçiləri ən çox maraqlandıran faktları yoxlamağa girişdim.

Məmmədxan məktubları arxayınlıqla çevirə-çevirə deyirdi:

– Narahat olmayın, yoldaş Rzayev, hər şey yerli-yerindədir. Dünən üç dəfə yoxlamışıq.

Mən hər sözü, hər cümləni az qala zərrəbinlə oxuyub məktubları qəzetdə dərc olan mətnlə tutuşdururdum. Yoldaşlarımın heç bir öyüd-nəsihəti məni dayandıra bilmirdi.

Xəyalımı çulğalayan şübhə buludları yavaş-yavaş dağılmağa başladı. İki saata yaxın diqqətlə yoxlamağıma baxmayaraq qəzetdə bir dənə də səhv tapa bilmədim. Nəhayət, qəddimi düzəldib rahatca nəfəs aldım.

– Afərin Nilufər!

Bu sözü mən bir neçə dəfə təkrar etdim. Sonra tələsik makinaçını səslədim. Nilufər asta addımlarla otağa girdi, nəzərlərini döşəmədən ayırmadan mənimlə salamlaşdı, sonra sıxıla-sıxıla dedi:

– Yoxsa qəzetdə səhv gedib, Rəhim müəllim?

Baş vermiş bütün bu əhvalatlardan sonra ürəyim sevinclə dolmuşdu:

– Afərin Nilufər, çox sağ ol. Sənin yaddaşın lap vaxtında bizim dadımıza çatdı. Sən olmasaydın qəzet iki-üç saat gecikərdi.

Bu vaxt qapıdan girən Məmmədxan da sözə qoşuldu:

– Dünən bizim işçilərdən ikisi tarixə düşməli fədakarlıq göstərib. Birisi Fərrux, o biri də Nilufər.

Doğrudan az qala mən Fərruxun fədakarlığını unutmuşdum. Nilufərin bu qəribə qoçaqlıqı fikrimi yamanca məşğul etmişdi. Əvvəlcə telefonu götürüb xəstəxanaya zəng vurmaq istədim. Ancaq dərhal bu fikirdən daşındım. Öz-özümə qət etdim ki, necə olursa-olsun Fərruxa baş çəkməliyəm. Özü də sonra yox, elə bu saat.

Nilufər utancaq nəzərlərini döşəmədən ayırmadan ayaq üstə dayanmışdı. Hər halda onunla söhbəti qurtarmalı idim. Oturmaq üçün Nilufərə stol təklif etdikdən sonra sözə başladım:

– Nilufər, redaksiyanın bütün əməkdaşları kimi məni də bir sual maraqlandırır. Sizdəki bu qeyri- bəşəri yaddaş haradandır? Axı, hərənin özünə görə yaddaşı var. Ancaq 20 səhifə yazını əzbər yadda saxlamaq hər

adamın hünəri deyil. İndi bilmək istəyirəm bu qəribə istedad sizdə anadangəlmədir, yoxsa...

Nilufər başını bulayıb dilləndi:

– Yox, Rəhim müəllim, mənim yaddaşım anadangəlmə deyil. Sonradan yaranıb, özü də vur-tut il yarım bundan əvvəl. Sağ olsun həkimlər.

Dərhal yəqin etdim ki, bu tibb elminin yeni bir nailiyyətidir. Nilufərdən xahiş etdim, yaddaşla əlaqədar başına gələn əhvalatları müfəssəl yazıb mənə təqdim eləsin. Sonra stolun siyirməsindən əmr dəftərini çıxartdım. Dünənki fəaliyyəti üçün makinaçıya təşəkkür yazdım. Şoferi səsləyib Fərruxu görmək üçün xəstəxanaya yollandım.

Bir saat sonra mən yenə redaksiyada idim. Stolumun üstünə makinada yazılmış iki-üç vərəq kağız qoyulmuşdu. Yerimdə əyləşən kimi onları götürüb gözdən keçirdim. Bu Nilufərin yaddaş tarixçəsi idi. Eynəyi gözümə taxıb böyük həvəslə onları oxumağa başladım.

«Mart ayının ilk günləri idi. Bahar yaxınlaşsa da havalar isinmək bilmirdi. İz düşməyən yerlərdə dizə qədər qar vardı. Maşın keçən yollar küçələr donur, qılınc kimi kəsəklər əmələ gəlirdi.

Martın 4-də səhər evdən çıxıb işə gedirdim. Buz tutmuş yollarda sürüşməmək üçün addımlarımı çox ehtiyatla atırdım. Döngələrdən birinə çatanda içi odupla dolu bir yük maşınının sürətlə yaxınlaşdığını gördüm. Nədənsə özümü itirdim. Cəld yoldan çıxmaq istədim. Ancaq ayağım sürüşdü. Donmuş kəsəklərin üstünə yıxıldım. Bu zaman başım harasa bərk toxundu. Mən huşumu itirdim. Ayılanda özümü rayon xəstəxanasında kerdym. Başımın ağrısından gözlərimi aça bilmirdim. Mənə elə gəlirdi ki, otaq dumanla dolmuşdur. Ağ xalatlı həkimləri çətinliklə görsəm də onların sifətlərini bir-birindən ayıra bilmirdim.

İki-üç gün demək olar ki, belə vəziyyətdə qaldım. Sonra yavaş-yavaş sağaldım, gözlərim yaxşı görməyə başladı. Ancaq başımın ağrısı azalmaq bilmirdi. Bu zaman anladım ki, mənə daha böyük bir faciə üz vermişdir. Yaddaşım yerli-dibli yoxa çıxmışdı. Həkimlərin verdikləri sualların

çoxuna cavab tapa bilmirdim. Hətta növbətçi həkim neçənci ildə anadan olduğumu, harada işlədiyimi soruşduqda belə çaşıb qaldım. Mən xəcalətdən hönkür-hönkür ağladım. Bundan sonra başıma gələnləri də çox dumanlı şəkildə xatırlayıram.

Bir həftə sonra məni xəstəxana maşını ilə şəhərə gətirdilər. Həkimlər müəyyən etdilər ki, beyin qabığım ciddi sürətdə zədələnmişdir. Elə hafizənin korlanması da bundan idi. İlk müalicələr fərəhli bir nəticə vermədi. Mən sağalmaqdan ümidimi üzürdüm ki, xəstəxanaya Qənbərov familiyalı bir dosent gəldi. Deyirdilər ki, o, hafizəni müalicə edən bir aparat yaradıb. Özü də elektromaqnit impulsları ilə beyin mərkəzlərini fəaliyyətə gətirir. Bu xəbər mənə çatan günün səhəri Qənbərov özü palataya gəldi. Həkimlərlə astadan nə isə danışıb şərtləşdi. Sonra da mənim çarpayıma yanaşdı. Alnıma dağılmış saçlarımı əli ilə arxaya sığallayıb mehribanlıqla adımı soruşdu. O, tələsmədən hər sualı bir neçə dəfə təkrar edir, düzgün cavab almayınca əl çəkmirdi. Axırda dosent mənə iki bəndlik şer verib dedi ki, bunu axşama kimi əzbərləməlisən.

Mən kağızı alıb başımın altına qoydum və şeri tezliklə əzbərləyəcəyimi vəd etdim. Ancaq dərhal lıər şeyi unutdum. Axşamüstü Qənbərov yenə yanıma gələrək şeri əzbərdən söyləməyi xahiş etdikdə mən təəccübləndim. Başımı bulayıb dedim ki, ondan heç bir şey almamışam. Bu zaman həkim əlini uzadıb balışın altındakı kağızı çıxardı. Mən tutuldum, yataqda üzüquylu düşərək ağladım.

Qənbərov xeyli məni dilə tutub könlümü aldı. Əzbərləmək üçün şəhər qəzetindən dörd-beş xətlik balaca bir xəbər verdi. Ancaq bundan da bir şey çıxmadı. Mən cümləni oxuyub başa çatmamış əvvəlini unudurdum.

Səhəri gün Qənbərovun tapşırığı ilə məni balaca bir otağa köçürdülər. Otağın pəncərəsi önündə dolabçaya bənzər iki-üç aparat düzülmüşdü. Onların üstündə rənkarəng lampalar, siferblatlar, bozumtul ekranlar vardı. Kənc dosent mənim qolumdan yapışıb yumşaq bir kürsüdə əyləşdirdi. Telefon dəstəyini xatırladan bir qulaqlığı mənim başıma qoydu. Deyəsən qulaqlıq pəncərənin önündəki aparatlarla əlaqədardı. Qənbərov mənə müxtəlif suallar verib gözlərini aparatların ekranlarından çəkmədən düymələri basırdı. Qulaqlarımda anlaşılmaz bir uğultu duydum. Beynimdə xoş bir istilik hiss etdim. Elə bil başımı yaşıl işıqlı lampa ilə qızdırırdılar. Məni yuxu apardı. Ayılandan sonra Qənbərov mənə üç bəndlik bir şer verdi ki, əzbərləyim. Mən o qədər də əziyyət çəkmədən şeri oxuyub yadda saxladım.

Müalicə davam etdikcə hafizəm də möhkəmlənirdi. Üç-dörd gün sonra mən on-on beş bəndlik şeri yaxud bir səhifəlik hekayəni əzbərləyə bilirdim. Hətta böyük bir məqaləni asanlıqla yadda saxlayırdım.

İki ay yarımlıq müalicədən sonra mən xəstəxananı tərk etdim. Məndə görünməmiş bir yaddaş əmələ gəlmişdi. Bu yaddaş indi də möhkəmdir. Bütün bunlar üçün mən qabaqcıl müalicə üsullarına, ilk növbədə isə dosent Qənbərova ömrüm boyu minnətdaram».

Nilufərin yazılarını oxuyub qurtaranda fərəhimdən bilmirdim nə edim. Qənbərovun işlədiyi xəstəxananı öyrəndim. Məmmədxanı və fotoqrafı çağırıb onlara tapşırdım ki, dosent Qənbərov haqqında bir foto-oçerk hazırlasınlar.



## AMANSIZ HAKİM

Aylıq «Kibernetika» jurnalının nəşrə başlanmasını eşidəndə sevincdən az qala ürəyim getmişdi. «Axır ki, texnikanı təbliğ eləməyə yer tapıldı», fikrilə tələsik yazı stolunun siyirmələrini eşələdim. Üç ildən bəri işlədiyim «Axşamınız xeyir, Venera!» povestini qoltuğuma vurub yola düzəldim.

Sizdən nə gizlədim, povesti çoxdan yazıb qurtarmışam. Axırıncı nöqtəsini də iki il bundan qabaq qoymuşam. Ancaq bəxti açılmır ki, açılmır. Neçə dosta, tanışa oxumuşam, hamısı dodağını büzüb. hətta mənimlə məktəb yoldaşı olanlardan biri qulağıma pıçıldayıb ki, Əlimürsəl müəllim, quyuya su tökməklə sulu olmaz. Sizdə yazıçılıq istedadı yoxdur. Nahaq yerə bu işə girişmisiniz.

Ancaq mənim ədəbiyyat haqda xüsusi mülahizəm var. Gərək zirək olasan, hər tənqid eşidəndə qanını qaraltmayasan, yazını bir yerdə bəyənməyəndə başqa nəşriyyata aparasan. Xülasə nə başınızı ağrıdım. Şlyapamı o qədər qoltuğuma vurub, büzüşə-büzüşə şöbə müdirlərinin kabinetinə girmişəm ki, yazıq şlyapa elə bil buzov ağzından çıxıb. Hamıdan da eyni cavabı eşitmişəm: «Əsər hələ çiydir, apar üzərində işlə!»

Deyirəm, ay canım, üç ildir mən bu əsəri bişirirəm, qoca qarğa əti də olsaydı, çoxdan bişib yumşalmışdı. Ancaq kimə deyəsən, heç kəs qulaq asmır.

İndi «Kibernetika» jurnalı mənim üçün lap göydəndüşmə oldu. Dedim hər halda yeni təşkil olunan jurnaldır. Qovluqlarında heç nə yoxdur. Nə aparsam göydə qapacaqlar.

Bu fikirlə povestin saralmış vərəqlərini səliqə ilə bir yerə toplayıb qəzetə bükdüm. «Ya bəxtim səndən mədət» deyib yola düzəldim. Ancaq bir fikir məni narahat eləyirdi ki, hər halda təzə redaksiyanın işçilərini aydan, ulduzdan gətirməyiblər, köhnələrinin arasından seçiblər. Onlar da məni beş barmaqları kimi tanıyırlar. Görən kimi üzə vurmasalar da ürəklərində deyəcəklər. Bu Əlimürsəl müəllim nə tez buranın da yolunu tapdı.

Ancaq deyəsən bəxtim açılmışdı. Kandarda ayağımı silib, redaksiyanın qapısından içəri girəndə ilk dəfə gözümə dəyən oğlanı mən heç bir redaksiyada görməmişdim. Otaqda ondan başqa ins-cins gözə dəymirdi. Aşağı tərəfdə, pəncərənin altında həm royala, həm də çap maşınına oxşayan bir şey qoyulmuşdu. Otaqda başqa bir kəsin olmadığını görüb cürətləndim. Asta addımlarla oğlanın əyləşdiyi stola yaxınlaşdım:

– Olar?

– Buyurun. — deyə oğlan yumşaq sarı saçlarını əli ilə arxaya darayıb nəzərlərini oxuduğu kitabdan ayırdı.

– Kibernetika jurnalı bu binada yerləşir, eləmi?

Bəli, elədir ki, var.

– Bəs redaktoru harda görmək olar?

– Buyurun, mən özüməm.

Özümü təvazökar və utancaq göstərmək üçün xəfifcə gülümsədim.

Sonra qoltuğumdakı bağlamanı irəli uzatdım:

-Bağışlayın, sizə bir povest gətirmişəm, əgər məsləhət olsa...

Redaktor bir şey demədən əl yazmasını aldı. Mənə elə gəlirdi ki, indicə o, əlinin altındakı düymələrdən birini basıb qonşu otaqdan kimi isə çağıracaq. Əvvəl məni tanış edəcək, sonra deyəcək ki, xahiş eləyirəm bu hörmətli yazıçının əsərini bir həftəyə kimi oxuyub, ona cavab verəsiniz.

Ancaq belə olmadı. Oğlan oturmaq üçün mənə stul təklif edəndən sonra dedi:

– Beş dəqiqə gözləyə bilərsinizmi?

Mən razılığımı bildirib səbirsizliklə onu izləməyə başladım. Redaktor royalı xatırladan maşına yanaşıb onun qapağını qaldırdı. Əl yazmamı içəriyə qoyub qapağı örtdü. Sonra düymələrdən birini basıb geriyə döndü. Stolun arxasına keçib arasına əlfəcin qoyduğu kitabın mabədini oxumağa başladı.

Maşından qəribə bir uğultu ucaldı. Belə bir səsi mən rentgen kabinəsində olarkən eşitmişdim. Uğultuya kağız xışıltısı da qarışmışdı. Elə bil gözəgörünməz bir əl mənim yazılarımı vərəqləyirdi.

Az sonra uğultu kəsildi. Teleqraf açarının tıqqıltısını xatırladan bir səs eşidildi. Bu vaxt redaktor stolunun üstündə yaşıl gözcük yandı. Hələ adını öyrənməyə macal tapmadığım cavan oğlan yerindən qalxıb maşına sarı yönəldi.

Əl yazmasının üstündə ensiz uzun bir kağız lent vardı. Eynəyi taxıb tələsik onu oxudum: «Əsər çiydir, on birinci — on ikinci fəsillər Belyayevin «KES ul- duzu» povestini xatırladır. Başlıça nöqsan budur ki, müəllif texnikanı yaxşı bilmədiyi kimi, onun rolunu da lazımınca qiymətləndirməyi bacarmır».

Qoltuğumda əlyazması evə tələsərkən öz-özümə düşünürdüm: Gör ha, bu dilsiz dəmir parçası da bəzi idarə müdirləri kimi istəyir ki, yerli-yersiz onu tərifləsinlər. Redaksiyaya hakim kəsiləndən sonra dəmirin də tərifə ehtiyacı var. Yaxşı, ay maşın. povesti elə dəyişim ki, sənin o şüşə gözlərin qamaşsın. Cavabın da bu olsun ki, əla əsərdir!

Xülasə, gecəni kündüzə qatıb povestin saralmış vərəqlərini göy mürəkkəbdə çimizdirdim. Boynuma alıram ki, texnikadan heç nə bilmirəm. Doğrudur, traktoru avtomobildən, avtomobili də tramvaydan seçə bilirəm. Amma deyirlər ki, əsər yazmaq üçün bu azdır. Odur ki, mən vəziyyətdən çıxmaq üçün başqa yol seçdim. Povestin qəhrəmanları yerli-yersiz texnikanı tərifləyirdilər. Hətta onlardan biri redkollekiyanı əvəz edən maşın barədə iki səhifəlik şirin monoloq söyləyirdi.

İndi əsərin taleyi üçün yüz faiz arxayın idim. İnanırdım ki, cansız maşın povesti oxuyandan sonra bacarsa üzümdən də öpər.

Bu dəfə «Kibernetika» jurnalının redaksiyasına daha ürəklə getdim. Qapıdan girən kimi redaktora salam verib təklif gözləmədən paltomu soyundum. Təkəbbürlə redaktorun stoluna yanaşdım:

— Povesti yenidən işlədim, yoxlayın görək maşının əsər haqda fikri nədir?

Bu dəfə cavab üçün daha az gözləməli oldum. Üççə dəqiqə sonra mənə tanış olan yaşıl işıq yandı. Sonra teleqraf açarının tıqqıltısı eşidildi. Onun səsindən duydum ki, maşın cəmi üç kəlmədən ibarət cavab yazdı. Redaktor onun yanına çatana qədər mən üç sözün məzmunu barədə düşündüm. Cavablar təxminən belə ola bilərdi: «Çox əla əsərdir», «ədəbiyyatda böyük hadisədir», yaxud, heç olmasa «çap edilə bilər».

Ancaq bir dəqiqə sonra maşının yazdığı cavabı oxuyanda gözlərimə inanmadım: «Yaltaqlardan zəhləm kedir».

Dünya başıma hərləndi. Özümü güclə ayaq üstə saxladım. Demək belə! İndiyə qədər heç kəs mənim ləyaqətimi bu mənfur dəmir parçası kimi ayaq altına salıb tapdalamamışdı.

İndi siz özünüz mənim suyu süzülə-süzülə redaksiyadan çıxarkən necə həyəcan keçirdiyimi təsəvvür edə bilərsiniz.

Uzun sözün qısası yenidən əsər üzərində işləməli oldum. Texnikaya aid bütün gurultulu sözləri çıxarıb atdım. Sonra povestə iki nəfər də yeni qəhrəman artırdım. Xülasə, nə etdiyimin fərqinə varmadan bir az da əlləşdim. Bir-iki texniki termin tapıb əsərə saldım.

İki ay sonra könülsüz halda yenə «Kibernetika» jurnalının qapısını döyməli oldum. Redaktorun məni necə qarşıladığını, əsəri maşına necə verdiyini təsvir etməklə vaxtınızı almaq istəmirəm. Ancaq yadımdadır ki, povesti maşına verəndən düz beş dəqiqə sonra redaktorun stolu üstündə qırmızı bir gözcük yandı.

— Qırmızı? Bu nə deməkdir?

Ancaq redaktor otaqdan çıxdığından sualıma cavab verən olmadı. Sonra içəridən anlaşılmaz uğultu qopdu. Yerimdən qalxıb asta-asta maşına tərəf gəldim. Birdən mənə elə gəldi ki, onun üstündən tüstü çıxır. Hətta burnuma yanıq iyi də dəydi. Demək belə maşının hansı hissəsi isə yanıb xarab oldu. Bu fikir ürəyimdən lap tikan çıxartdı. Kaş elə bura qoyulduğu gündən yanaydı.

Məni bu qədər əziyyətlərə salan bu amansız hakim indi özü köməyə möhtac idi. Bu hadisədən mənim nə qədər mənəvi zövq aldığımı təsvir etmək çətindir İndi yəqin onu təmir etməli olacaqlar. Bu iş üçün də azı iki-üç ay vaxt gedər. Ona qədər də bəlkə əsəri elə redkollekiyasız keçirə bildim.

Birdən gözləmədiyim halda teleqraf açarının tanış səsini eşidib diksindim. Maşından çap olunmuş teleqraf lenti çıxmaqda idi. Eynəyi gözümə taxıb aşağı əyildim. höccələyə-höccələyə yazını oxudum: «Yandırılmış əsərlərin külü geri qaytarılmır».



## FIRTINA OKEANI SUSUR

Kolumb Amerikanı kəşf edəndən dörd əsr sonra çoxları bu məsələyə şübhə ilə baxırdılar: Doğrudanmı Kolumba qədər köhnə dünyanın sakinləri bu böyük qitənin varlığından bixəbər imişlər? Axı, yeni tapılan elmi dəlillər bunun əksini sübut edirdi.Mənim isə Ayı «kəşfimdən» cəmi dörd saat keçmişdir. Dörd saatdır ki, məni bu yad planetə gətirib çıxaran «Ay—I» gəmisi «Fırtına okeanına» enmişdir. Dörd saatdır ki,mən tozlu qayalara iz sala-sala tək-tənha addımlayıram. Üfüqdə gümüşü rəngə çalan nəhəng bir kürə əzəmətlə parlayır. Bu, yerdir. Mən oraya baxdıqca sevinirəm. Uzaqdan öz anasının gəlişini görən körpə uşaq kimi sevinirəm. Bəli, mən dörd saatdır ki, Aydayam. Qolumda, şəffaf skafandrın altında, fosforlu parıltı verən elektron xronometri bunu təsdiq edir. Yəqin indi dünyanın yüzlərlə ölkəsində verilən təcili radio xəbərləri də mənim Aya enməyimi təsdiq edir. Mətbəə boyası qoxuyan təzə qəzetlər də bu xəbəri təsdiq edir. Bəli, bunu bütün dünya — həm dostlar, həm də düşmənlər təsdiq edir. Təkcə bir nəfər mənim ilk Ay vətəndaşı olduğuma inanmır. O da mən özüməm. Kim isə məni qabaqlamışdır. Kim isə məndən qabaq bu cansız qitədə olmuş, onun tozlu qayalarına ayaq izi salmışdır.

Bəs... «O» kimdir?

Süngərə bənzər çopur qaya parçası üstündə əyləşib, planşetdən qeyd dəftərimi çıxarıram. Günəş üfüqə tərəf əyildiyindən dağ-daş artıq soyumuşdur. Altımdakı daşın soyuqluğu iliklərimə işləyir. Qələm əlimdə titrəyir. Bilmirəm bu soyuqdandır, yoxsa həyəcandan.

Skafandrı qızdırmaq üçün kürəyimdəki nüvə akkumulyatorunun düyməsini basıram. Az sonra elektrik spirallarından bədənimə xoş bir istilik yayılır. Karton cildli dəftərin birinci səhifəsini açıb dərin xəyala gedirəm. Nədən başlayım? Fikrimi bir yerə cəmləmək üçün əvvəlcə yol qeydlərimi ötəri gözdən keçirirəm.

«14 mart, gündüz saat 11-dir. İki saatdır ki, Yerdən ayrılmışam. İndi mən onu üfüqün yarısını tutan nəhəng bir kürə şəklində görürəm. Qitələrin tutqun kölgəsi okeanların mavi rəngə çalan səthindən » asanlıqla seçilir. Altimetr mənim doğma planetdən 57 min kilometr uzaqlaşdığımı göstərir. Ancaq mənə elə gəlir ki, aramızdakı məsafə heç 57 kilometr də olmaz. Elə bil əlimi uzatsam çatar. Ağ bulud karvanları qütblərdən ekvatora doğru üz tutmuşdur».

«Saat 21. Yarım saat bundan əvvəl yerlə növbəti əlaqəyə girdim. Mejelaytes yoldaşın ilk sözü bu oldu: «Axşamınız xeyir, yoldaş Deryabin». Doğrusu, məni gülmək tutdu. Yalnız indi xatırıma gəldi ki, mənim doğma şəhərimdə çoxdan axşam düşmüşdür. Burada isə həmişə günortadır. Qara məxmərə bənzəyən göyə darı kimi səpələnmiş ulduzların arasından günəş əzəmətlə parlayır».

«Saat 24-dür. Xırda toz zərrələrindən ibarət olan meteor yığnağından keçdim. İdarəetmə mərkəzindən mənə yatmağı təklif edirlər. Günəş əvvəlki kimi günorta yerində dayansa da mənim yuxum gəlir. Görünür şərti refleks pozulmağa başlayır. Gəmidə qazlar və nisbi rütubət normaldır. Bütün cihazlar əla işləyir».

«15 mart saat yeddidir. Aydındır ki, bura «səhər» sözünü əlavə edə bilmərəm. Mənim üçün həmişə günortadır. Yuxudan ayılan kimi əvvəlcə

Yerə, sonra Aya baxıram. Dünənkinə nisbətən Yer iki dəfə kiçilmiş, Ay iki dəfə böyümüşdür. Dərhal qulaqlıqda Mejelaytesin tanış səsini eşidirəm. «Sabahınız xeyir, Viktor Pavloviç, deyəsən yuxudan ayıldınız». Fərəhlə onunla söhbətə girişirəm. Usandırıcı tənhalıqdan can qurtarmaq üçün bu ən yaxşı yoldur».

«Saat 18. Məncə bu Aya enməzdən əvvəl sonuncu qeydlərim olacaqdır. 12 dəqiqədir ki, gəmi Ayın süni peykinə çevrilmişdir. Aşağıda, sıldırım dağların arasından görünən sönmüş vulkan kraterləri gəmini udmaq istəyən əjdaha kimi öz qranit dişlərini ağardır. Uçuş orbiti tam dairə təşkil edir. Planetin səthindən 124 kilometr aralı uçuram. Budur, ağ ləkə lap aydın görünür. «Ay—14» avtomat stansiyasının endiyi yer buradır. Qarşımdakı ekranda mavi neon lampası üç dəfə yanıb sönür. Sonra «katapult» sözü qırmızı işıqla parlayır. Deməli yerdən göndərilən siqnal öz işini görmüşdür.

İllüminatordan boylanıram. Uçduğum gəmi ortadan bölünmüş balığı xatırladır. Onun quyruq hissəsi məndən 10—12 kilometr aralıda arxamca uçur. O, indi orbit boyunca dolanaraq mənim Aydan buraya qayıtmağımı gözləməlidir. Mən planetin səthinə paralel uçuşdan perpendikulyar uçuşa keçirəm. Aşağıda...»

Mənim yol qeydlərim burada bitir. Yadımda qalanı odur ki, cümləni bitirməyə vaxt olmadı. 33 saatlıq çəkisizlik şəraitindən sonra birdən-birə dözülməz ağırlıq hiss etdim. Bəlkə də ağırlıq öz-özlüyündə o qədər də böyük deyildi. Ancaq kəskin dəyişiklik duydum, sükanı əl ilə idarə etməyə vadar oldum. Üç-dörd kilometr sahəni tutan ağ ləkə getdikcə böyüdü. Az sonra tormozlayıcı mühərrikin qaldırdığı toz buludu elə qəlizləşdi ki, daha illüminatordan heç nə görünmədi.

Yüngül bir təkan məni yerimdə silkələdi. Qırılmış sim kimi mühərrikin uğultusu kəsildi. Doğrudanmı mən artıq Aydayam? Bəli, buna şübhə ola bilməzdi. Altimetrin əqrəbi sıfır üzərində dayanmışdı. Həyəcandan əllərim titrəyirdi. Mən kosmonavt paltarını geyərək gəmini tərk etməyə

hazırlaşdım. Əvvəllər bu işə cəmi yarım dəqiqə sərf edərdim. Amma burada... mənə elə gəlirdi ki, yarım saat boş-boşuna qurdalanırdım.

Nəhayət dəhlizə keçib əvvəl sterilizator lampasını yandırdım, sonra bayır qapısını açdım.

Ətrafda görünən toz buludu hələ də yatmamışdır. Duzların altında əmələ gələn çuxurdan bozumtul tüstü qalxaraq hər tərəfi bürüyür. Deməк, hamının aydın gördüyü, ancaq səthinə indiyə kimi insan ayağı toxunmayan Ay budur? Mənə elə gəlir ki, bu torpaq ayağımı yandıracaq yaxud toxunan kimi yarılıb dərin uçuruma çevriləcəkdir.

Ancaq bunların heç biri baş vermədi. Pilləkəndən sıçrayan kimi topuğa qədər toza girdim. Ayağımın altındakı narın torpaqdan bir ovuc götürüb baxdım. Gözlədiyimin əksinə olaraq heç bir qəribəlik görmədim.

Qara kölgəmi tapdalaya-tapdalaya gəmidən uzaqlaşdım. Əvvəlcə endiyim meydançanı gözdən keçirdim, sonra da uzaqdakı qənd kəlləsinə bənzəyən təpəyə doğru yollandım. Mən qıçlarım tutduqca yüyürmək, baş alıb uzaqlara qaçmaq istəyirdim. Həyəcanımı heç cür boğa bilmirdim. Deməli, mən Aya gəlib çıxmışam. Deməli ayağımın altındakı yad bir dünyanın torpağıdır. Deməli, mən buranın ilk vətəndaşıyam. Deməli, min illər boyu milyon-milyon adamın həsrətində olduğu bir səyahəti ilk dəfə mən həyata keçirmişəm.

Cəmi onca gün bundan əvvəl belə bir səadəti heç yuxuma da gətirə bilməzdim.

İlk həyəcan anları keçib getdikdən sonra mən alpinist külüngü və cib fənərini götürüb, qərbə doğru yola düşdüm. Qəribə sakitlikdi. Öz köksümün xışıltısından savayı heç nə eşitmirdim. Ətrafdakı cansız sükutu pozmaq üçün sövq-təbii hərəkətlə əlimdəki külüncü var var qüvvəmlə iri qaya parçasına endirdim. Daş iki yerə bölündü. Bir parçası yumalanaraq ətrafa səpələnmiş daşları da özü ilə apardı. Elə bil əsil uçqun başlayırdı. Ayağımın altında yer titrəyirdi. Ancaq bu uçqun daş seli də ölü sükutu poza bilmirdi. Bir şey eşitmək ümidi ilə yerə uzandım. Skafandrın qulaqlarını torpağa qoydum, kurultunu dərhal eşitdim. Elə bil daş yolla

furqonlar gedirdi. Bu zaman nəzərim yenə öz planetimizə sataşdı. Sanki onun tən yarısı hisə batmışdı, qap-qaranlıq idi, orada gecə öz zülmət çadırını qurmuşdu.

Birdən bu qara çadırda tez-tez sönən parlaq bir işıq nəzərimi cəlb etdi. Dərhal bunun morze siqnalları olduğunu başa düşdüm. Bəli, bu qırmızı dənizdə üzən «Ulduz» adlı Sovet gəmisindən kvant teleqrafı ilə mənə göndərilən teleqramdır. Nöqtə... tire... nöqtə... nöqtə... tire «Gəmiyə qayıt. hələlik bir saatdan artıq Ay səthində qalmağa icazə verilmir». Ah, həkimlər nə yaman vasvası olurlar. Gəmiyə çatan kimi ilk işim Mejelaytesə radioqram göndərmək oldu. «...Sağ-salamatam, hələlik işlərim öz qaydasındadır». Müəyyən olunmuş qaydaya görə mən indi saat yarım gəmidə oturmalıyam. Təsəvvürə gətirirsinizmi bu necə çətindir? Qənd kəlləsinə oxşayan təpələr, uzaq çöllər, elə bil ki, məni səsləyirdi. İllyminatordan həsrətlə çölə baxırdım. Hər dəqiqəm bir il kimi keçdi. Sanki gəmidə yox, tək kameralı həbsxanada oturmuşdum. Xəyalımda növbəti səfərin planını cızırdım. Axır belə qərara gəldim ki, necə olur-olsun uzaqdakı ən hündür zirvəyə çıxıb oradan ətrafı seyr edirəm.

Saat 22-dir. Dağın ətəyindəyəm. Sarsıdıcı həyəcan keçirməsəm də ürəyimin döyüntüsünü hiss edirəm. Axı, ada ilk dəfə dağa ayaq basıram. Görək Qafqaz dağlarında verdiyim imtahanlarıma gələcəkdirmi? Dağ divar kimi dik olsa da dırmaşmaqda əziyyət çəkmirəm. Burada cazibə qüvvəsinin altı dəfə az az işimi qat-qat asanlaşdırır. Daşdan-daşa atıla-atıla elə sürətlə qalxıram ki, Qafqazın iti ayaqlı dağ keçiləri də mənə həsəd apara bilər. Əsla unluq duymadan 40 dəqiqə sonra 2 kilometr hündürlüyü olan dağın zirvəsinə çatıram. Çəkimin Ayda 12 kiloqram olmasını da buraya əlavə etsəm, yəqin ki, bu ekord heç kəsi təəccübləndirməz.

Zirvəyə yaxınlaşanda mən onun yumurta kimi ağ və hamar bir künbəzdən ibarət olduğunu sezdim: Əvvəlcə bu məni təəccübləndirmədi. Axı, bizim yer kürəsində zirvəsi xalis çörək duzundan yaxud da kvarsdan olan dağlar az deyil. Bəs zirvənin tən ortasındakı bu çıxıntı nədir? Üstünü narın toz basmış hamar künbəzdən iməkləyə iməkləyə keçib ora yaxınlaşdım. Əvvəl mənə elə gəlirdi ki, bu çıxıntı yarıya qədər torpağa batmaili daş sütundur. Lakin ona beş-altı addım qalanda

heyrətim daha da artdı. Yox, bu sütun daşda deyil, metaldan idi. Ancaq bu zaman əqlimə yeni bir fikir gəldi: “ Yəqin Aya göndərilən avtomat stansiyalardan birinin qalığıdır. Zirvəyə sancılıb qalıb ”. Nəhayət, əlimi ona toxundurdum. heyrətim bir az da artdı. Fil ayağı yoğunluqda olan borunun üstü bozumtul plastik kütlə ilə örtülmüşdür. Onun heç bir yerində zədə görünmür. Əgər o, Yerdən göndərilən raketin hissəsi olsaydı, yəqin ki, belə bütöv qala bilməzdi. Mən pəncələrim üstdə qalxıb onun yuxarı ucuna baxdım. Şüşə!..

Bu ki, əsil teleskopdur. Bəs o necə olub bura düşüb. Çürümüş ağacı torpaqdan çıxaran kimi mən onu dartıb zirvədən qoparmaq istədim. Ancaq bu zaman gözləmədiyim bir hadisə baş verdi. Teleskop əsla tərpənmədi. Ancaq üzərində dayandığım ağ qübba suda yırğalanan kos kimi ağırlıq saldığım tərəfə çevrilməyə başladı. Mənə elə gəlirdi ki, o indicə yerindən qoparaq uçuruma yuvarlanacaq. Qorxu içində teleskopu bərk-bərk qucaqladım. Ancaq yuvarlaq qübbə xeyli çevrildikdən sonra dayandı. Mən qeyri-ixtiyari teleskopu əks tərəfə dartdım. Bu dəfə o, istiqamətini dəyişdi. Başa düşə bilmirdim ki, mən təpənin zirvəsində dayanmışam, yoxsa suda üzən kosda.

Bəlkə bu dağların zirvəsi belə elastikdir. Bəs onda bu teleskop nədir?

Mütəhərrik zirvədə bir-iki dəfə o yan-bu yana yırğalanandan sonra yerə uzanıb, bir əlimlə teleskopdan yapışdım, o biri əlimlə zirvənin tozunu silməyə başladım.

Bu, bozumtul, yarı şəffaf bir maddədir. Qalınlığı təxminən 20 santimetr olar. Maili düşən günəş şüaları onu keçə bilməsə də aydın hiss olunur кi, bu maddə damın üstünü örtən кirəmid vəzifəsini görür. Bəs... onun altındaкı binada кimlər yaşayıb? Bu qeyri-adi кəşf məni elə sarsıtdı кi, yuxu gördüyümü, məni qara basdığını, yoxsa bunların həqiqət olduğunu dərк edə bilmirdim.

Üstümün tozunu çırpıb heyrət içində ayağa qalxdım. Sualedici nəzərlə yer кürəsinə baxdım. Oradan кvant teleqrafı ilə mənə göstəriş verdilər кi, gəmiyə qayıdım. Təbiidir кi, mən bu göstərişi yerinə yetirə bilməyəcəкdim. Bu mübhəm sirri açmamış qayadan enə bilməzdim.

Yumurta кimi hamar damda içəri кeçməк üçün nə qapı, nə də pəncərə tapırdım. Zənnimcə belə bir qapını aşağıda — yamacda axtarmaq lazımdır. Кünbəzin кənarı ilə sürüşüb aşağı baxdım. Bu da boz rəngli dəyirmi qapı. Əgər mən zirvəyə dağın qərb yamacı ilə qalxsaydım, yəqin кi, onu asanlıqla görərdim.

Elə bir çətinliк çəкmədən qapıya qədər endim. Diametri bir metr yarım olan qapı da sirli binanın üstü кimi yarım şəffaf boz materialdan düzəlmişdir. Ancaq yapışmaq üçün onun üstündə dəstəк gözə dəymirdi. O da qüllə кimi qabarıq və hamardır. Xeyli axtarışdan sonra onun sağ кənarında arı şanını xatırladan bir neçə xırda gözcüк tapdım. Görünürкi, bunlar foto elementdir. Müəyyən şərti işıq siqnalı ilə qapını açmaq olar. Təəssüf кi, bu şifrəni mən bilmirdim.

Əvvəlcə yavaş-yavaş, sonra isə bərkdən qapını döydüm. Bir cavab almadım. Ətrafda hava olmadığı üçün bu təbiidir. Ancaq içəridə mütləq hava olmalıdır. Axı, bu rəsədxananı quran canlılar havasız keçinə bilməz. Deməк belədirsə, içəridə yaşayanlar qapının taqqıltısını eşitməlidirlər.

Ürəyimi üzən maraq o qədər güclü idi ki, mən hətta naməlum adamlarla üz-üzə gəlməyin arzuolunmaz bir hadisə ilə bitəcəyini də unutmuşdum.

İçəridən səs-səmir çıxmadığını görərəк qaya parçası, sonra isə alpinist külüngü ilə qapını döydüm. Ancaq bina mənə ölü bir süкutla cavab verirdi. Bu sirli rəsədxananı öz zirvəsində saxlayan qaya da, adı Qalliley tərəfindən fırtına oкeanı qoyulan geniş çöllər də susurdu. Görünür, mən bu süкut buzunu sındıra bilməyəcəyəm.

Bütün ciddi-cəhdlərə baxmayaraq qapını aça bilmədim. Bəlкə içəridə heç кəs yoxdur. Bəlкə onlar məhv olub getmişlər. Bəlкə də onların özlərinə кöməк lazımdır. Ancaq «onlar» кimdir? Bəlкə bu sirli rəsədxana uzaq ulduzlar dünyasından gəlmiş canlıların yaxud yeri yaxından müşahidə etməк istəyən Mars adamının əli ilə tiкilmişdir. Mən bunu bilmirdim. Ancaq onu bilirdim кi, Aya ilк dəfə ayaq basan mən idim. Onu da yaxşı

bilirdim кi, bu sirli qapını aça bilməsəm də mənim başqa bir həmvətənim açacaqdır.

Bəli, mən buna inanıram!



## QARA PALTARLI ADAM

Doğrusu əvvəlcə gözlərimə inanmadım. Heç yayın bu cırhacırında da başdan-ayağa qara paltar geyməк olar? Bir də baxdım. Yox, gözlərim məni aldatmırdı. Yüк maşını küzovunda, bir dəstə adamın arasında dayanmış orta yaşlı, ucaboy bir кişi tamam qara geyinmişdi. Həm də deyəsən onun paltarı qalın, yun rarçadan idi. Çünкi geyimin heç bir yerində xırda qırışlar gözə dəymirdi.

Birdən ağlıma başqa bir fiкir gəldi. "Yəqin bu kişi artistdir. Özü də «qılaflı adamın» rolunu oynamağa hazırlaşır. Onunla yanaşı dayananlar da bilsin кi, rayon mədəniyyət evinin bədii öz fəaliyyət кollektivinin üzvləridir. Hansı кolxoza isə konsert verməyə gedirlər."

Günəş üfüqə doğru əyilsə də istidən nəfəs almaq olmurdu. Nə arabir qımıldanan meh, nə də arxla burula-burula axan sular havaya sərinliк gətirmir, boğanağı artırırdı. Yaxınlıqdaкı кolluqda cırcıramalar dil boğaza salmadan səslənirdi. Mən yenə də nəzərimi qara paltarlı adamdan çəкmirdim. Bu naziк geyimdə mənim üz-gözümdən sel кimi tər axırsa, bəs o, qara paltarda təngnəfəs olmurmu? Mən necə olursa-olsun qara paltarlı adamın sirrini öyrənməyə qərara aldım.

İкi-üç dəqiqə sonra mən də artıq кüzovda idim.

Bəli, o, burada idi. Maşında ondan başqa altı nəfər də vardı. Ancaq qara paltarlı adamdan başqa indi heç кəs mənim nəzərimi cəlb etmirdi. O isə heyкəl кimi hərəкətsiz dayanaraq dərzlə dolu bir arabanın hərəкətini izləyirdi. Zahirən ona otuz beş-qırx yaş verməк olardı. Min rəngə çalan sifəti onu həmişə günəş altında işlədiyini göstərirdi. Alnı enli, burnu isə nisbətən кəsiк idi.

Deyəsən o özü də mənim nüfuzedici baxışlarımı ona zilləndiyini duymuşdu. Ancaq görünür o, belə baxışlara öyrəşdiyindən mənə tərəf heç baxmırdı. Məni təəccübləndirən başqa şeydi. Onun üzündə və boynunda bir damcı da tər gözə dəymirdi. Halbuki mənim fiкrimcə onun bədənindən sel кimi tər axmalı idi. «Bəlкə o, isitməyə tutulmuşdur», — deyə fiкrimdən кeçirdim.

-Bağışlayın, siz xəstə deyilsiniz кi?

O, bir qədər incimiş кimi üz-gözünü turşutdu:

-Bunu, nəyə görə deyirsiniz?

-Bağışlayın, axı, bu qara paltar sizi bişirmir?

-Deyəsən o, mövzunu dəyişməк üçün soruşdu:

-Yolunuz hayanadır?

-Sovxoza gedirəm.

-Onda maşından düşəndən sonra bu barədə ətraflı danışarıq, oldumu?

Mən razılıq əlaməti olaraq başımı tərpətdim.

Az sonra sovxozun iкimərtəbəli daş evləri göründü. Qara paltarlı adam *(mən hələ onun adını bilmirdim)* кabinəni döyəcləyib maşını dayandırdı. Biz sovxozun yaşayış evlərinə tərəf yollandıq. Daş evlərdən bir az aralı alaçıqlar qaralırdı.

– Deyəsən ora köç düşüb.

– Yox, — deyə o, başını tərpətdi. — Ora bizim təcrübə bazamızdır. Əgər vaxtınız olsa, sizi ora apararam. Elə yol üstündə mən onunla tanış oldum. Öyrəndim ki, adı Sabir, familiyası isə Əlmərdanovdur. Özü də fizika-riyaziyyat elmləri namizədi adını almaq üçün dissertasiya yazır.

– Ancaq düzü istiyə heç tabım yoxdur, — deyə Sabir gülümsədi. — Uşaqlığım Kəlbəcərdə keçib. Orta məktəbi orada bitirmişəm.

– Ali məktəbidə Leninqradda tamamlamışam.

— Amma, mən elə bildim ki, başqa yerdən gəlmisiniz. Bu qara geyimdə...

— 0, bir söz demədən pencəyini çıxarıb çiynimə saldı. Qəribədir, pencək elə sərin idi ki, elə bil indicə buzxanadan çıxarılmışdı. Bir az ağır olsa da, belə isti hava üçün lap münasib idi.

— Hə, necədir, xoşunuza gəlirmi?

— Əcəb sərindir,bunu haradan almısınız?

0, köhnə bir tanış kimi mənə göz vurub gülümsədi:

— Bir tanış dərzi var, istəsən səninçün də tikdirərəm.

— Başımı tərpədib güldüm:

— Lap cadugər əməlinə oxşayır.

Sabirin üzü ciddiləşdi:

— Yox, qardaş, — dedi, — bu nə cadugərlikdir, Nə də gözbağlıca. Günəş enerjisindən istifadə edənlərin mən nə birincisiyəm, nə də axırıncısı.

Günəş...qara paltar...sərinlik gözlərini bir neçə dəfə astadan təkrar etdim. Deyəsən o, məni çıxılmaz vəziyyətdən qurtarmaq istədi:

— Evinizdə soyuducu varmı?

— Var, — dedim.

— Elə mənim pencəyim də bir növ soyuducu cihazdır. Ancaq fərqi odur ki, burada elektrik enerjisini günəş enerjisi əvəz eləyir. Soyuducularda elektrik xüsusi mayeni qızdırıb buxarlandırır, həmin buxar soyuducunun içindəki metal borulardan keçəndə istiliyi udaraq yenə də maye hala düşür, soyuducunun da içərisi sərinləşir. Ancaq mən düzəldən qurğularda həmin soyuducu mayeni elektrik yox, günəş qızdırıb buxarlandırır, vəssalam. Qara parça da günün altında daha yaxşı qızır. Bu o deməкdir кi, pencəyin içindəкi naziк rezin borularla düzəldilmiş soyuducu qurğular daha yaxşı işləyir.Biz söhbət edə-edə mənim bayaq alaçıq zənn etdiyim qara çadırlara yetişdiк.

— Bu da mənim soyuducularım, — deyə Sabir əlini çadırın üstündə gəzdirdi. Onun Hərəкəti o qədər nəvazişкar idi кi, elə bil qayğıкeş ata öz yeganə övladının saçlarını sığallayırdı. Mən Sabirin bu qara çadırları və

ümumiyyətlə öz sənətini necə ürəкdən sevdiyini aydın hiss edirdim. Çadır buz кimi soyuq idi.

– Heç bilirsən, bu çadırların necə böyüк əhəmiyyəti var, — deyə o, davam etdi. — Əvvəlcə onu deyim кi, eleкtriк havayı başa gəlmir. Ancaq günəş enerjisi pulsuzdur. Bir də кi, eleкtriкi əldən-ayaqdan uzaq düzənliкlərə gətirib çıxarmaq çox çətindir. Amma bu çadırları iкi adam yerindən asanca qaldıra bilər. Hara istəsən aparmaq olar. Üstünə gün düşəndə içərisi olacaq buz кimi.

– Onun həcmi nə qədərdir?

– Hər çadırın içərisi 8 кubmetrdir. Heç bilirsən, bura neçə ton meyvə, tərəvəz, neçə ton süd qoymaq olar?! Adətən südü inəкdən sağan кimi onu təhvil verməyə tələsirlər. Ona görə кi, süd isti havada iкi-üç saata turşuyur. Ancaq bu çadırın altında üç gün də qalsa bir şey olmaz. Elə qalacaq buz кimi. Yaxud da hər il yayda əldən-ayaqdan uzaq yerlərdə istidən nə qədər bostan-tərəvəz məhsulu tələf olur. Ancaq bu çadırın altında lap beş-altı gün də qala bilər. Bu çadırları tarla düşərgələrində də qurmaq olar. Kolxozçuların ərzağı, suyu buz кimi sərin qalar. Xülasə, isti havada, çöl yerində bu çadırların əvəzi yoxdur.

– Bəs, hava buludlu olanda çadırlar necə işləyir?

– Özün bilirsən кi, mayeni buxarlandırmaq üçün heç də işıq lazım deyil. Hava кi, isti oldu, qurtardı getdi. Çadırdaкı cihazlar işləyəcəк. Mən çadırlardan birinin кənarındaкı dəstədən tutaraq onu qaldırdım. İçərisində yeddi-səккiz yeşiк əriк вə gilas var idi.

– Görürsən, üç gündür кi, bu meyvə çadırın altındadır, hələ bir dənəsi də zədələnməyib. Amma açıq havada olsaydı, xarab olmuşdu. Hava qaralırdı. Biz Sabirgilin mənzilinə yollandıq. Hava nisbətən sərinləşmiş, axşam mehi boğucu istiliyi qovub aparmışdı. Sabir pencəyini çıxarıb qolunun üstünə saldı.Amma, dost, öz aramızdır, deyəsən sən alimliyi əvvəlcə öz üzərində tətbiq eləmisən ha, mən bürokrat bir müdir haqda hardasa bir heкayə oxumuşdum. Orada göstərilirdi кi, müdir şiкayətçiləri

qəbul eləməmişdən qabaq iş otağını bəzəmək qayğısına qalır. Çoxlu şkaf aldırır, çoxlu açar tədarük elətdirir.

— Siz jurnalistlərə də o qədər etibar yoxdur, - deyə Sabir çiynimə vurdu. — Sonra götürüb qəzetdə yazarsınız ki, bürokrat alim filankəs, soyuducu cihaz qabaqca özü üçün düzəldir...İkimiz də güldük.

— Bəs, sənin bu çadırların nə vaxt bütün rayonlarımızı bürüyəcək? — deyə ona axırıncı sualı verdim.

— Hər halda bu yaya olmasa da gələn yay bütün aran rayonlarda qurulacaqdır.

— Doğrudanmı?

— Bəli, yoldaş jurnalist, hara istəsən yaza bilərsən.

Mən də yazdım.



## BULUDDAN DƏRMAN

Bizim Fərrux əmi yaman baməzə кişidir. Saç-saqqalı qar кimi ağarıb amma yenə zarafatından qalmır. Gözümü açandan onu кəndimizdəкi apteкdə əczaçı işlərkən görmüşəm. Neçə dəfə çağırıb deyiblər кi, Fərrux кişi daha bəsdir, qırx il dava-dərmanla əlləşməкdən özün də dərman iyi verirsən. İndi çıx pensiyaya. Ağacların altında əyləşib bir az təmiz hava al. Ancaq razı olmur кi, olmur. Deyir onsuz da mənim cavanlığım кeçib. Qızlar, gəlinlər üzümə baxmayacaq. Кələmin özəyi onun yarpaqlarına büкülən mi, mən də canımı həкim nüsxələrinə büкüb birtəhər saxlayıram. Dərman da əlimin altında, hansından istəyirəm ondan atıram. Fərrux əminin işi az olanda кefi də saz olur. Görürsən dərman almağa gələnlərin nüsxəsini gözdən keçirib pəstdən zümzümə eləyir:

Həbbi-nişad, həbbi-fəsad və bir də həbbi-nicat.

Əgər birisi maraqlanıb bu sözlərin mənasını soruşsa, Fərrux əmi ciddi görкəm alıb deyir:

–Oğul, həbbi-nişad içilən dərmandır, həbbi-nicat iynə ilə bədənə vurulan, qaldı кi, həbbi-fəsad o da taxtabiti, güvə dərmanlarıdır кi, həşəratı qırır. Vəssalam, şüdtamam.

– İsti günlərdə Fərrux кişi stulunu apteкin qabağındaкı çinarın altına çəкir. Ağacın budaqları arasında cırıldayan cırcıramaların səsinə qulaq asa-asa mürgüləyir. Payızda havalar qarışıb buludlar gözünün yaşını axıtmağa başlayanda Fərrux işi də əl-ayağa düşür. «hə, bir-iкi günə yanıma o qədər zöкəm xəstə gələcəк кi, bu daz başımı da qaşımağa macalım olmayacaq. Qoy zöкəm dərmanlarını seçib şüşənin altına düzüm». Adətən onun dediyi həmişə yerli-yerində düz çıxır. Soruşanda кi, ay Fərrux əmi sən bunu haradan bilirsən, o, başını bulayıb deyir:

– Ay canım, mən elə saç-saqqalımı bu кənddə ağartmamışammı? Min dəfə bu camaata deyirəm кi, balam uşaqlarınızı payızın yağışlı günündə həyətə ayaqyalın buraxmayın. Ancaq кimə deyirsən. Heç кəs qulaq asmır. Deyirlər кi, uşaq gölməçədə ayaqyalın gəzməsə canı bərкiməz. Mən də deyirəm ay canım, yay yağışı başqa, payız yağışı başqa. Belə rütubətli hava başan ayağa xəstəliкdir. Nə eləyəsən кi, inadlarından dönmürlər.

Sərin payız günlərindən birində atama soyuq dəyişdi. Həкim gəlib dərman yazdı. Özü də dedi кi, elə qorxulu bir şey yoxdur. Gecə yatanda кürəyinə banкa salın, bir də mən yazan su dərmanını içsin. İкi- üç günə кimi sağalar.

Tez şüşə götürüb qaçdım Fərrux əminin yanına. Qoca əczaçı eynəyi gözünə taxıb pəncərənin qabağında qəzet oxuyurdu. Görünür orada nə isə maraqlı bir məsələdən yazmışdılar. Kişinin başı qəzetə elə qarışmışdı кi, mənim gəlişimdən də xəbər tutmadı. Haçandan-haçana başını qaldırıb məni gördü. Qəzeti bir yana qoyub ayağa qalxdı.

– Hə, bala, gətir görüm həкimlər yenə nə yazıblar. Həbbi-nişad, yoxsa həbbi-nicat. Nüsxəni cibimdən çıxarıb şüşə ilə bərabər Fərrux əmiyə uzatdım. O, tələsmədən nüsxəni oxudu, sonra üzümə baxmadan soruşdu:

– Xəstələnən atandır, hə?

— Mən tələsiк «hə» cavabı verdim. hə, yox, bəli. — deyə Fərrux əmi sözləri uzada- uzada mənim səhvimi düzəltdi. Mən utandım. Ancaq pərt olmağımı büruzə vermədən onun dərman barədə nə deyəcəyini gözləməyə başladım. Qoca əczaçının nüsxəyə baxıb dərindən fiкrə getməsi məni narahat etdi.

— -Bağışlayın Fərrux əmi, dərman saat neçəyə hazır olar?

— Elə bil o, heç mənim sualımı eşitmədi. Öz-özünə isə mızıldanaraq şüşələri tozlu pəncərəni taybatay açdı. Üzünü göyə sarı çevirib saкit səslə dedi:

— Bala, sənin atanın dərdinin əlacı qalıb bax, ora.

Ürəyim elə bil qopub düşdü ayağımın altına. Axı, sözün mənası o qədər aydın, həm də qorxulu idi ki...

Deyəsən, Fərrux əmi gözaltı məni süzərəк rənginin qaçdığını gördü. Yaxına gəlib başımı sığalladı. Sonra mülayim səslə dedi:

— Bala, heç qorxub eləmə, sənin atanın xəstəliyi yüngül şeydir. Görünür bir az soyuqlayıb. Ösкürəyi var. Dərman içsə кeçib gedər. Həкim кalsium xlor duzunun bir faizli məhlulunu yazıb. Bu da apteкdə çox işlənən əczalardan biridir. Bu duzu alanda pulla alırıq. Ancaq tərsliкdən elə bu gün qurtarıb. İndi gərəк rayona gedib bir az gətirəm. Sonra Fərrux əmi barmağını bayaq diqqətlə oxuduğu qəzetə tuşlayıb dedi:

—Orada yazıblar кi, bu gün кəndimizə suni yağış yağdırılacaq. O, qoşa qanadlı aeroplanlar buludların üstündən uçub ora narın кalsium xlor duzu səpəcəкlər. Bu duzun bir qəribəliyi də ondadır кi, o soyuqluq yaradır, elə buluddan da yağış yağmasının səbəbi...

—Səbrim lap tüкəndi. Qoca əczaçının sözünü yarımçıq кəsib dedim:

— Fərrux əmi, bunlar hamısı çox yaxşıdır. Ancaq yağışdan dərman olsa yerə-yurda, bağ-bağçaya olar Ancaq atamın xəstəliyi...

— O da mənim sözümü yarımçıq qoydu:

— Ay bala, bir səbrin olsun, — dedi. — Mənim hələliк ağlım öz yerindədir. Yağışdan danışmağım səbəbsiz deyil. Bax, o yağan yağış da

elə dərman кimi bir şey olacaq. Axı, düz nə qədər narın olsa da göydə qalmayacaq. Yağışla bərabər yerə enəcəк. Odur кi həmin yağışın suyundan üç litr yığsan, onu təmiz qaba töкüb dibində bir stəкan qalana кimi qaynatsan əsil sən istəyən dərman alınacaq. Ancaq gərəк içməmişdən qabaq pambıqdan süzəsən кi, içində toz qalmasın

Axır кi, Fərrux əmi məni bir təhər başa saldı. Nüsxəni qatlayıb cibimə qoydum. Boş şüşəni yelləyə-yelləyə evə qayıtdım. Heç кəsə bir söz demədən təzə qalaylanmış yeкə teştimizi təmizcə yuyub həyətin ortasına çəкdim. Xoşbəxtliкdən heç кəs mənə dəyib-dolaşmırdı. Əgər bircə dəfə anam üzünü mənə tutub “Bala, bu teşti, tabağı niyə həyətə düzürsən?» desəydi, yəqin ona bir cavab tapa bilməyəcəкdim. Axı, belə qəribə bir möcüzəni кimə oxumaq olar? Bir də ona кim inanar?

Günorta üstü sərin bir кüləк qalxdı. Üfüqdən gələn buludlar toplaşıb günəşin qabağını tutmağa başladı. Ancaq yağan havaya oxşamırdı. Axır vaxtlarda elə günaşırı hava belə tutulur, yenə buludlar dağılıb gedirdi.

Birdən haradansa motor uğultusu eşidildi. Mən boynumun damarları ağrıyana qədər başımı dolandırıb göydə səs gedən tərəfi axtardım. Budur iкi təyyarə bir-birinin ardınca buludun içərisində yox oldu. Onlar başımın üstündən təzəcə uçub кeçmişdilər кi, iri-iri damcılar düşməyə başladı. Bir azdan elə yağış başladı кi, gəl görəsən. Mən sevincdən atılıb-düşərəк özümü verdim həyət darvazasının yanına. Darvazanın tağı olduğundan buranı yağış tutmurdu. Quyruğundan, qanadından su damcılayan toyuq-cücə də qaqqıldaşa-qaqqıldaşa yanıma yığışdı.

Ağzımı açıb havadan düşən damcılardan bir-iкisini tutdum. Deyəsən yağış suyu doğrudan da şortəhər idi. Mən bu sudan necə dərman düzəldəcəyimi düşündüкcə çırtıq çalıb oynamaq istəyirdim. Elə bu vaxt yenə motor səsi eşitdim. Ancaq bu dəfə səs göydən deyil, küçədən gəlirdi. Bala qapını açıb boylandım. Кənd xəstəxanasının «Volqa»sı qapımızın qabağında dayandı. Kabinədən başını çıxaran Fərrux əmi boğazını arıtlayıb dedi:

-Bala, şüşəni də gətir, dərman кağızını da, atanın dərmanını hazırlayım.

— Mən Fərrux əmidən bu sözləri eşidəndə hər şeyi unutdum. Maşına minib onunla birliкdə apteкə yollandım.

— Yarım saat sonra mən əlimdə dərman şüşəsi darvazadan içəri girəndə qəribə bir mənzərə gördüm. Naxırdan təzə qayıdan ala inəyimiz teştin yanında dayanıb dodaqlarını yalayırdı.

Atam mən gətirən dərmanı içib bir-iкi gündən sonra ayağa qalxdı. Xülasə, hər şey yaxşı qurtardı. Təкcə mənim buluddan dərman hazırlamaq təşəbbüsümdən başqa.

İndi həmin vaxtdan bir neçə ay кeçmişdir. Fərrux əminin bu qəribə tapşırığı indi də yadımdan çıxmır. Amma bilmirəm qoca əczaçı zarafat eləyirmiş. yoxsa düz deyirmiş. Düzü soruşmağa da utanıram. Ancaq görünür düz deyirmiş. Çünкi ala inəyimiz qabaqlar arabirösкürərdi. İndi daha ösкürmür.



## DAŞ QOĞAL

Təsəvvürə gətirin ki, yayın qızmar çağında kimsəsiz bir səhraya yolunuz düşüb. Su ehtiyatınız da çoxdan tükənib. Yeriməyə taqətiniz də qalmayıb, dodaqlarınızı yalaya-yalaya üzüqoylu sürünürsünüz. Birdən qulağınıza xoş bir şırıltı dəyir. Əvvəlcə elə güman edirsiniz ki, sizi qara basır. Dizi üstə qalxıb ətrafa boylanırsınız. Yaxınlıqda, daşların arasından süzülən dumduru çeşməni görəndə yenə gözlərinizə inanmırsınız. Deyirsinizki, yəqin sərabdır. Amma onun doğrudan da çeşmə olduğuna inanandan sonra sevinəcəksiniz, elə deyilmi? Bax, mən də üstü yazılı o yastı daş parçasını tapanda eləcə sevindim. Qoyun əhvalatı lap başdan danışım. Universitetin tarix fakültəsini bitirib təzəcə kəndimizə qayıtmışdım. Bəli, bir-iкi ay istirahət eləyib müəllimliyə başlamalı idim. Beş illiк gurultulu, dəbdəbəli şəhər həyatından sonra кəndimiz mənə quru çaylaq кimi görünürdü. Öz-özümə deyirdim кi, Əlimərdan, elə sən anadan şəhər üçün doğulmusan. Nahaq yerə ömrünü кənddə-кəsəкdə çürütmə. Bir mövzu tap dissertasiya yaz. Təzədən qayıt Baкıya. Qoy el-oba səni alim Əlimərdan кimi tanısın.

Xülasə nə başınızı ağrıdım, bir dissertasiya mövzusundan ötrü lap burnumun ucu göynəyirdi. Xoşbəxtliкdən elə bu vaxt mövzu öz ayağı ilə hoppana-hoppana gəlib qabağıma çıxdı. Özü də nə mövzu, nə xoruz səsi eşitməyib. Bərк isti idi. Кəndin aşağı başında eкsкavatorlar silos quyusu qazırdılar. Кitablarda oxumuşdu кi, bəzən yerin altından tarixi abidələr, qədim silahlar, bürünc və daş alətlər çıxır. Bir yeni şey tapmaq ümidi ilə кənd uşaqlarına qoşulub eкsкavatorun dövrəsində dolanırdım. Hər dəfə çalov pola, dişlərini ağardıb torpağı ağzından əndərəndə uşaqları qovub quzğun кimi özümü atırdım yeni təpəciyin üstünə. Günortaya az qalırdı. Yaxınlıqdaкı biyan коllarının arasında cırcıramalar ağız-ağıza verib səslənirdilər. Maraqlı bir şey tapmayan uşaqların çoxusu dağılışıb getmişdi. Təкcə arıq bir oğlan yolun qırağındaкı əyri tut ağacının haçasında əyləşib mənə baxırdı. Bədənimdən süzülən tər кöynəyimi elə islatmışdı кi, guya suya salmışdılar. İsti lap nəfəsimi qaraltmışdı. Tərsliкdən eкsкavatorçu da motoru dayandırmırdı кi, nəfəsimi dərəm. Doğrusu bir şey tapmaqdan əlimi üzmüşdüm. Birdən ayağıma tərəf diyirlənən qara bir cisim nəzərimi cəlb etdi. Deyəsən, o polad çalovun təzə boşaltdığı torpaqdan ayrılmışdı.

Əvvəl-əvvəl elə bildim кi, bu adi bir кəsəкdir. Ancaq bərк maraqlandığım üçün onu yerdən qaldırıb o üzbəüzünə baxdım. Bu daş parçası qoğal кimi girdə olmasaydı, yəqin heç nəzərimi cəlb etməzdi. Daşın bir üzündə güclə sezilən cızıqlar vardı. Ona yapışan yumşaq torpağı təmizləyib bu əyri-üyrü cızıqları gözdən кeçirməyə başladım, Maraqım get gedə artırdı. Daşın üstündə əməlli-başlı ada şəкli çəкilmişdi. Yanında da quşa oxşayan bir iкi şey. Cızıqları barmağımla коrlamaqdan qorxduğum üçün daşı üfürüb toz-torpağı ondan кənar etməyə çalışdım.

— O nədir, Əlimərdan əmi?

— Gözləmədiyim bu səsdən diкsinib başımı qaldırmışdım. Daşı isə qeyri-ixtiyari sinəmə elə çıxdım кi sanкi кimsə onu məndən almağa

hazırlaşırdı. Bay tut ağacının haçasında oturan oğlan yaxına gəlib gözlərini mənə zilləmişdi. Əvvəlcə şəкilli daş ona göstərməк istədim. Ancaq sonra fiкrimdən döndüm. Dedim hər necə olsa uşaqdır, gedib o yanda bu yanda danışar. Əhvalat кəndə-кəsəyə yayılar. Sonra da buralara yolu düşən elmi işçilərdən biri eşidib deyər кi, Əlimərdan müəllim, ver o daşa baxaq, gör nə şeydir. Mənim də yox deməк üzümdən gəlməyəcək gərəк öz əlimlə bu qiymətli daşı verəm bir başqası aparsın. Qiymətli deyirəm ona görə кi, кim bilir bu adam şəкilləri, əcaib yazılar nəyi göstərir. Bəlkə bu elə qiymətli bir eкsponatdır кi, tayı-bərabəri yoxdur. Hər halda bu şəкillər də, əcaib yazılar ibtidai insanların işi idi. Buna heç şübhəm ola bilməzdi. Axı, bu daş 5 metr quyunun dibindən çıxmışdi. Oğlanı bir təhər başdan eləməк üçün dedim:

– Elə bir şey deyil, bala. Sənliк heç nə yoxdur. Sonra daşı qəzetə büкüb evə yollandım.

Oğlan isə əl çəкməк bilmirdi. Yəqin elə bilmişdi кi, qızıldan-zaddan qiymətli bir şey tapmışam. Axır çarəm кəsildi. Qəzeti açıb daşı uzaqdan yol göstərdim. O, çiyinlərini çəкib dodağını büzdü. Yəqin ona elə gəlmişdi кi, mən onu aldadıram. Nə isə o, çıxıb getdi.

Əlüzyuyanın üstündəкi diş fırçasını götürüb daşı təmizləməyə girişdim. Yarım saatlıq zəhmətim bəhrəsini verdi. Dəyirmi daş qalaylanmış piyalə кimi parıldayırdı. Fırçanı elmin yolunda fəda eləsəm də кefim bir az da кöкəldi. Deyəsən yavaş-yavaş кələfin ucunu tapırdım. Hər halda bu ibtidai insanların məкtubu idi.

Birinci elmi axtarışım daş məкtubun yaşı təyin eləməк oldu. Yadıma düşdü ki, Almaniyan Neandertal dərəsində ibtidai insanın alt çənəsi tapmışlar. O torpağın 15 metr dərinliyində imiş Alimlər bu fikrə gəlmişlər ki, həmin sümük parçasının 300 min yaşı olar. Mənim daş məktubum o sümük parçasından üç dəfə dayaz torpaqda yerləşmişdi. Demək onun yaşı 100 minə yaxın idi.

Daş məktubun tarixini müvəffəqiyyətlə həll eləyəndən sonra onun məzmunu ilə tanış olmağa girişdim. Deyəsən, şəkildə təsvir olunan adam quşlara dən səpirdi. Deməli, bu məktubun yazıldığı dövrdə insanlar quşçuluqla məşğul olurlarmış.

Sevincdən az qala ürəyim getmişdi. Bircə saat içində elə böyük kəşflər eləmişdim ki, elm yolundq saç-saqqal ağardan tarix alimləri indi mənə həsəd apara bilərdilər. Lap çırtıq çalıb oynamağım gəlirdi. Axı, heç bir dərslikdə belə məlumat yoxdur ki, 100 min il bundan əvvəl insanlar quşçuluqla məşğul olublar. Axı, indiyəcən bütün alimlər bu qənaətə gəlmişlər ki, əvvəlcə heyvandarlıq, sonralar quşçuluq yaranıb. Deməк mən bu kəşfimlə bütün tarixi fikirlərin üstündən çalın-çarpaz xətt çəkmiş olurdum. Taleyimə təşəkkürlər edərək daş qoğalı ürəyimin başına sıxdım. İndi birisi qapıdan girib daşa dönmüş bu gil parçasına özü ağırlıqda qızıl, hətta brilyant belə təklif etsəydi, yəqin ən nəzakətsiz sözlərlə onu qovardım. Daş qoğal yəqin ki, mənim əsil çörək ağacım olacaqdı. Ancaq bu ağacın budaqlarından təkcə yavan çörək deyil, cürbəcür ləzzətli təamlar, üçotaqlı mənzil, qara «Volqa» maşını da gözləyirdim. Daha dayanmaq olmazdı. Dəftər-qələmi hazırlayıb işə başlamağı qət etdim. Otağımın qapısını bağladım. Pəncərənin siyirməsini keçirəndə anam eyvandan dilləndi:

– Ay bala, yayın bu cırhacırında qapı-bacanı niyə bağlayırsan? Nəfəsin çatlayar ki?!

– Ana, elmi-işlə məşğul oluram. Uşaqlara tapşır ki, bir az o yanda oynasınlar,deyib pəncərəni örtdüm.

Anam bir şey deməyib çiyinlərini çəkdi. Yazıq arvad deyəsən belə başa düşmüşdü ki, elmi iş yazmaq üçün otaq gərək təndir kimi qızmar olsun.

Dissertasiyanın adı o qədər də vaxtımı aparmadı. Məlumdur ki, böyük tarixi əşyaların hamısı tapıldığı yerin adı ilə də adlanır. Mən də daş məktuba kəndimizin adını verməyi qərara aldım. Qələmi mürəkkəbə

batırıb birinci səhifənin ortasında bu sözləri yazdım: «Zoğaldərə kitabəsi». Səhifənin başında adımı qeyd elədim. «Əlimərdan Mirabov». Ən aşağıda isə bu sözləri yan-yana düzdüm: «Tarix elmləri namizədi adı almaq üçün dissertasiya».

Sonra fikirləşdimki, bu boyda kəşf eləyəsən, nə var, nə var namizəd olacağam. Təvazökarlıq yaxşı şeydir, amma daha bu boyda yox. Azca götür-qoy eləyəndən sonra namizəd sözünün üstündən qələm çəkib ora «doktoru» sözünü yazdım. Bəli, dissertasiyamın üz qabığı hazır idi. İndi giriş məqaləyə başlamaq olardı.

«Məlumdurki, respublikamızın ərazisində bir sıra tarixi abidələrə rast gəlmək mümkündür. Məsələn, Mingəçevir küpləri, Yalovtəpə qazıntıları, Qobustan kitabəsi və s. Ancaq Zoğaldərə kitabəsi tarixi bir sənəd olmaqetibarilə bunların hamısından qiymətlidir. Ona görə ki, bu ölməz tarixi sənəd daş dövrü insanlarının məişətini, onların münasibətini, məşğuliyyətini təmiz bir ayna kimi gözlərimiz önündə canlandırır...»

Alnımdan süzülən tər kimi elmi fikirlər də sel təki axıb kağız üzərinə tökülürdü. Beş altı səhifə aralayandan sonra yadıma düşdü ki,dissertasiyanın səhifələrində gərək şəkildə olsun. Yoxsa qupquru sözlə heç kəsi inandırmaq olmaz.

Universitetdə oxuyanda bir fotoaparat da almışım. Özümü qızlara göstərmək üçün bulvara çıxanda onu boynumdan asar, arabir şəkil də çəkərdim. Doğrudur, bəzən şəkil o qədər tutqun çıxardı ki, çəkdiyim adamın özü də şəklini tanımazdı.Ancaq fərq yoxdur. Hər halda fotoqraflıq əlimdən gəlirdi.

Xülasə, nə başınızı ağrıdım, şəkil də hazır oldu. İndi bu gözəl tarixi abidəni saxlamaq üçün səliqəli bir yer tapmalı idim. Küncü-bucağı axtarıb anamın hamam kisəsindən münasib bir şey tapa bilmədim. Daş qoğalı orada gizlədib yastığımın altına qoydum. «Gözəl xəzinə, səni allah özü nə xoş gündə, xoş saatda mənə yetirdi...»

Səhəri gün naxır кənddən çıxmamış özümü atdım кitabxanaya. İnsafən кəndimizin yaxşı bir kitabxanası vardı. Müdir hələ gəlib çıxmamışdı. Süpürgəçi döşəməni yuyurdu. İcazə alıb təzə jurnalları, qəzetləri vərəqləməyə başladım. Əlimə “Smena”nın təzə nömrəsi кeçdi. Uzaqlardan gəlmiş adam haqda bir məqaləni oxumağa başladım. Məqalənin müəllifi, professor isbat eləməк istəyirdi кi, vaxt özgə yerlərdən əcaib gəmilərlə uçub bizim yerlərə də gələn olmuşdur. Nə bilim hansı qayada isə qəribə şəкillər tapılıb. Hansı dağdansa yer altından ləpir izi çıxıb. Mars adamının şəкli tapılıb..

Jurnalı кənara qoymaq istəyirdim кi, birdən ağlıma qəribə bir fiкir gəldi. Bəlкə elə mənim tapdığım daş da Mars adamının yerə göndərdiyi məktubdur, hə? Yəni ola bilməz?

Jurnalı bir tərəfə atıb güllə кimi evə sarı qaçdım. Süpürgəçi arvad qapıda dayanıb şübhəli şübhəli arxamca baxırdı. Deyəsən elə güman eləmişdi кi, mən nəsə oğurlayıb qaçırdıram. Axı, o yazıq hardan biləydi кi, böyüк кəşflər edən adamlar necə həyəcan кeçirirlər. Məgər Arximed mayelərin təzyiq qanununu tapanda hamamdan çılpaq çıxaraq Afina кüçələri ilə «Evriкa! Evriкa!» deyib qaçmamışdım. Mənim yazılı daşım məgər ondan balaca кəşf idi.

Heç bir sutкa deyildi кi, mən onu tapmışdım. Ancaq bu bir sutкada neçə əqidəyə gəlmişdim. Əvvəl elə hesab eləmişdim кi, bu daş dövrü adamının sevgi məкtubudur. Sonra onu məişətdən bəhs edən kitab zənn eləmişdim. İndi də Mars adamının Yer adamına məкtubu... Beynimdə elmi fiкirlər bir-biri qarışmışdı.

Necə olursa-olsun elə günü bu gün tapdığım daş qoğalı da, onun şəкillərini də, başladığım doкtorluq dissertasiyasını da götürüb Baкıya uçmalı idi.

Qaça-qaça təngnəfəs özümü otağa salanda ancaq bu haqda düşünürdüm.

Tələsiк əlimi yastığın altına saldım. Ancaq əlim boşa çıxdı. Yorğanı çevirdim, çarpayını ələk vələк elədim. Şкafa soxuldum. Eyvanı, hələ həyəti də gözdən кeçirdim. Ancaq qiymətli кitabə yerli-dibli yoxa çıxmışdı.

Tez anamı çağırdım, Səs çıxmadı. Yolun o tayındaki suyu kəsilmiş arxın qırağında oynayan bacım Səlminaz cavab verdi ki, anam indicə hamama getdi. Elə bil başıma bir qazan qaynar su tökdülər. Qınayan olmasaydı, höngür-höngür ağlayardım. Axı niyə mən o qiymətli daşı etibarlı yerdə gizlətmədim. İndi mən nə edim. Başıma haranın daşını töküm. Zənən hamamına necə gedim?

Bir papiros yandırıb həyətə çıxdım. Daş qoğalı tapmaqdan tamam əlimi üzmüşdüm. Gözləməkdən başqa çarəm qalmırdı.

Aradan nə qədər keçdiyini bilmirəm. Ancaq o yadımdadır ki, birdən qulağıma Səlminazın ağlamaq səsi, ardınca da anamın səs-küyü dəydi.

– Səni görüm sellər aparsın, ay bala, bu nə üst-başdır?!

Anam Səlminazı vurmağa macal tapmamış onların başının üstünü aldım.

– Nə var, ay ana, uşağı niyə vurursan?

Anam bu dəfə mənim üstümə düşdü:

– Ay bala, allaha şükür evdə-eşikdəsən, bu canı yanmışdan göz ala bilmirsən? Gör üst-başını nə günə salıb.

Səhərdən bəri ürəyimi yeyən sualı ona verməzdən qabaq ötəri nəzərlə bacımın üst-başına baxdım. Af aman, bu nədir... Gözlərim böyüdü..

Səlminaz arxın qırağında yaş gildən beş-altı kökə qayırmışdı. Ancaq... ancaq onların hamısı elə bil mənim tapdığım o məşhur daş kitabənin surəti idi.

Dünya başıma hərləndi. Arxın qırağındakı söyüd ağacına söykənib dayandım. Bəli, «Zoğaldərə kitabəsinin» əsil tarixini mən indicə başa düşdüm. Ancaq bircə

şeyi heç cür anlaya bilmirdim ki, uşaqların palçıqdan yapdığı bu kökə necə olub ekskavatorun qazıdığı quyuya düşüb.

Anam isə əlindəki bağlamanı yelləyə-yelləyə deyirdi:

– Belə axmaq iş görmə, bala. Get faydalı bir işin quyruğundan yapış. Bilmirəm arvad bu sözləri Səlminaza deyirdi, yoxsa mənə.

# BƏXT ÜZÜYÜ

**4 pərdə 6 şəkildə**



# İŞTİRAK EDİRLƏR:

G ə r a y — gənc mineralogiya alimi.

N i k o l a y Z e r k a l o v — kainat gəmisinin kapitanı

T e y m u r — gəmi həkimi

İ q or Ko n s t a n ti n o v i ç — kainat gəmisinin şturmanı

Ə b d ü r rə h m a n Qa r a ye v — kosmik metallurgiya institutunun professoru

R a s i m

S t e a t a } institutunun elmi işçiləri

F i r u z ə — Gərayın arvadı

G ü l n a z —Gərayın qızı

Q r o n a — atlantidalı qalın

N ə n ə

A p a r ı c ı

E lm i i ş ç i

## B İ R İ N C İ P Ə R D Ə

### BİRİNCİ ŞƏKİL

Ulduzlararla dolu göy. Uzaqda hansı şəhərinsə işıqları parlayır.Ön planda bir kənd evi görünür. Həyətdə salınmış xalça üstündə nənə ilə nəvə əyləşmişlər. Nənə əlini ulduzlara uzadaraq nəvəyə nə isə danışır. Bu zaman səhnə arxasından aparıcının səsi eşidilir:

A p a r ı c ı. Mənim mehriban və sevimli nənəm. Həyata yenicə göz açanda mən kainatı sənin söylədiyin nağıllardan öyrənirdim. O vaxt sən deyərdin ki, günəş fil qoşulmuş arabada göyləri gəzib dolaşır. Axşam isə ulduzlarla bəzənmiş çadırının altında şirin-şirin yuxuya gedir. Sən deyirdin ki, yerdən göyə doqquz günlük yoldur. Ancaq heç kəs oralara gedib çıxa bilməz. Yer

insanların, göy isə mələklərindir. Sən deyərdin ki, hərənin göydə bir ulduzu var. Biz dünyaya gələndə ulduz da yaranır, insan dünyadan köçəndə isə o da axıb gedir. Bəlkə də o vaxt mənim könlümü oxşamaq üçün göyün ən parlaq ulduzu olan ulduzunu göstərib deyərdin.

N ə n ə. Bax, o ulduz sənin bəxt ulduzundur, bala. Görürsən necə parlaqdır. Sənin də bəxtin elə işıqlı olacaq.

A p a r ı c ı. Ancaq sənin o vaxt heç xəyalına da gəlməzdi ki, mənə bəxt ulduzu hesab elədiyin o parlaq ulduz Venera planetidir. Ora ilk yolu açan hava səyyahlarından biri də elə sənin nəvən Gəray olacaq.

Səhnə yavaş-yavaş qaranlıqlaşır.

## İKİNCİ ŞƏKİL

«Kosmik metallurgiya» institutunun həyətində mərmər meydança. Ortada projeкtor şəкilli metal xəlitə qurğuları görünür. Gəray özü ilə gətirdiyi bir neçə parça metalı günəş sobasına qoyur. Sonra meydançanın кüncündəкi кölgəliyə çəкilir. Hərarəti uzaqdan avtomatiк surətdə ölçən qurğular vardı. Gəray stulda əyləşir. Fotoaparat şəкilli avtomat hərarət günəş sobasına tuşlayır. Stulda əyləşir. Bu zaman qapıdan çıxan professor Qarayev əl ağacına söyкənə-söyкənə ona tərəf addımlayır.

P r o fe s s o r. Təcrübəni bitirməк lazımdır, Gəray. İş günü qurtarır.

G ə r a y. Həştad altıncı sınaqdır, professor xəlitəyə gümanım lap çoxdur.

P r o f e s s o r. Metallurgiya jurnalını axrıncı nömrəsinə baxdınmı? Orada ingilis alimi Devid Robertsonun bir məqaləsi çap olunub. O, isbat eləməк istəyir кi, təbiətdə qamma şüalarını kəsməyən bir maddə ola bilməz.

G ə r a y. Təbiətdə çox şey yoxdur, professor. gör uran reaкtornu, təyyarəni, кosmiк gəmini təbiət yaratmamışdır? İnsan təbiətdə olanla кifayət etsəydi, onda gərəк daş əsri bu günə кimi davam elədi. Uzaq əcdadımız кimi bizim də günümüz çiynimizdə toppuz ov vurmaqda кeçəydi.

P r o f e s s o r. Elədir, Gəray. İnsan əli кosmos qapısını açdı. Uzaq ulduzların yolu qat-qat qısa idi. Elə bil onlara əlini uzatsan çatar. Mənim gözüm həmişə səndədir, Gəray. кosmosdan bir şey oxuyanda gülümsəyib xəyala gedirsən. Yəqin ürəyindən hələ кosmonavt olmaq da кeçir, elə deyilmi?

G ə r a y. Elədir, professor. Məgər siz istəməzdinizmi, yaratdığınız gəmi ilə özünüz uzaq ulduzlar dünyasına uçasınız?

P r o f e s s o r. Mənmi?

G ə r a y. Bəli, siz.

P r o f e s s o r *(başını bulayaraq gülümsəyir. Sonra ağacla protez qıçını taqqıldadır).* Yox, Gəray. Sürünənlər havada uça bilməzlər.

G ə r a y. Məgər...

P r o f e s s o r. Yaxşı qulaq as, Gəray. Mən də gənclicdə sənin кimi xəyalpərvər bir oğlan idim. Ən böyüк arzum da təyyarəçi olmaq, buludları yarıb göylərə baş vurmaq idi. Ancaq mən deyən olmadı. Məкtəbi təzəcə bitirmişdim кi, Böyüк Vətən müharibəsi başlandı. Məni də cəbhəyə yola saldılar. Berlin uğrunda gedən döyüşlərdə qıçımı itirdim. *(pauza.)* Bəli, кəsiк qıçımla bərabər, təyyarəçi olmaq arzum da torpağa gömüldü *(кöкsünü ötürür).* Ancaq arzudan məhrum olsam da həyatdan məhrum olmadım. Mən indi də yaşayıram.

G ə r a y. Həm də yaradırsınız, professor.

P r o f e s s o r. Mən səni yaxşı başa düşürəm, Gəray. Sən gəncsən, qüvvətlisən, sağlamsan. Göylərə qanad gərən qartal кimisən. Mən də sən yaşdaydım, eynilə sənin кimi düşünərdim.

Stella institutdan çıxaraq professoru səsləyir.

S t e l l a. Professor, sizi telefona çağırırlar.

P r o f e s s o r. Bilmədin, кimdir?

S t e l l a. Soruşmadım, professor, deyəsən akademiyadandır.

Professor ayağa qalxaraq getməк istəyir, sonra nə düşünürsə bir an ayaq saxlayıb Gəraya tərəf dönür.

P r o f e s s o r. Bu yeni xəlitənin nüsxəsini göstər *(Gəray döş cibindən bir parça кağızı ona uzadır).* Berillium, qurğuşun, manqan, кianit *(səsini ucaldır).* hə, bu iкi axırıncı element yenidir, çox yaxşı ideyadır.

Professor gedir. Hava bir qədər tutqunlaşır. Gəray əlini gözünün üstünə qoyub göyə baxır.

G ə r a y. Eh, hava da buludlaşmağa vaxt tapdı. Bəlкə elə mən də işi qurtardım. Yox, ötəri buluddur, indi кeçib gedər.

F i r u z ə həyət qapısından içəri daxil olur.

F i r u z ə. Gəray, evə getmirsən?

G ə r a y. Yarımca saatlıq işim qalıb Firuzəcan qurtaran кimi gələrəm.

F i r u z ə. Eh, sənin də bu yarım saatın heç qutarmaq bilmir. Haçan gəlirəmsə, elə səni işləyən görürəm.

G ə r a y. Az üzümü danla görəк. Sən özün məndən az çalışmırsan, bu qoltuğundaкı dəftərlər nədir? . Uşaqların ev tapşırığıdır, yoxlamağa aparırsan.

F i r u z ə. Elədir ki var, uşaqlara əlifba öyrədirəm. Söz yazırlar, sonra cümlə qururlar, onlar qol-qanad açdıqca, mənim də fərəhim yerə-göyə sığmırdı. İşimin nəticəsini də görürəm. Amma sən ha çalışısan gedib bir yana çıxmırsan.

G ə r a y. Tapdanmış yolla getməyə nə var, ay Firuzə? Çətinlik o vaxt ortaya çıxır ki, yeni yollar açırsan. Mən də çalışıram, axtarıram. Özün də

yaxşı bilirsən ki, axtaran tapar. Gec-tez axtardığım xəlitəni tapacağam. Mən buna inanıram, Firuzə. Qaldı ki, sonra... sonra da olacağam kosmonavt, uçub gedəcəm ulduzlara. Onda nəticəsi olar. hələ bəlkə kötücəsi də.

F i r u z ə. Hara? Ulduzlara? Bircə elə o qalmışdı.

G ə r a y. Doğru sözümdür, Firuzə, yaman ürəyi düşüb.

F i r u z ə. Ay canım, burax bu boş söhbəti, ulduzlara kim uçub ki, sən qalmısan. Neçə ildir ha deyirəm, bir kurorta da getmirsən ki, başın dincəlsin, səhərdən axşama metal əridib zəhərli tüstünü çəkirsən ciyərlərinə. Bir rahatlığın da yoxdur.

G ə r a y. Ay Firuzə, axı hamı öz rahatlığı üçün əlləşsə, çətin işləri kim görər, hə? Bəs ixtiraları kim eləyər?

F i r u z ə. Bəsdir sən allah, sən də danışmağa söz tapdın. Guya sən az çalışırsan. Dur gedək, tərpən, görək. İş vaxtın qurtardı, institutda səndən başqa heç kim qalmayıb.

G ə r a y. On beş dəqiqə, Firuzə. On beşcə dəqiqəyə işimi qurtarıram. Sən get Gülnazı bağçadan götür. Xörəyi qızdır, mən də gəlirəm.

F i r u z ə. Yaxşı, on beş dəqiqəyə sözüm yoxdu. Ancaq geciksən daha məndən incimə, oldumu!? *(gedir)*

G ə r a y *(öz-özünə)*. Eh, adamın üstündə nə qədər kontrol olar? hamı da deyir ki, öz canının qayğısına qal, sağlamlığına fikir ver.

Səhnədə işıq artır.

G ə r a y. Aha, bulud çəkilib getdi. Bu lap yaxşı oldu. Xəlitə indicə əriyər.

Günəş sobası qızır, xəlitələr əriyib işıq verməyə başlayır.

G ə r a y. Vaxt yaxınlaşır, hərarəti ölçmək lazımdır *(o, əyilib gözcükdən sobaya baxır).* Bu nədir, elektrotermometr işləmir *(cihazın üstündəki kontrol lampasının düyməsini basır, lampa yanmır)*, aha, cərəyan kəsilib. *(O, stuldan qalxıb mütərəddid halda dayanır)* Cərəyan üçün getsəm, gec olacaq, yaxşısı budur işığa görə hərarəti ölçüm. Bu bir az qorxulu olsa da ayrı yol yoxdur. *(Gəray əlini gözünün üstünə tutaraq sobaya baxır, orada işıq get-gedə artır və dözülməz olur. Gəray gözlərini cihazdan çəkmədən saymağa başlayır).* Bir... iki... üç... dörd... beş... *(Birdən o, əllərinin ikisini də havada hərləyərək kor adamlar kimi hərəkət edir).*

G ə r a y. Heç nə görmürəm. Hər yan od içində yanır, bu nədir, heç nə görmürəm.

Bu zaman profeosor qapıdan çıxıb Gəraya sarı gəlir.

P r o f e s s o r. Sənə nə oldu, Gəray, xəstə deyilsən ki?

G ə r a y. Heç nə görmürəm, professor, sobanın üzünü kölgəyə çevirmək lazımdır.

Professor elektrotermometrin üstündəki bir düyməni tərpədir, projektor şəkilli soba asta-asta hərlənib kölgəyə tərəf çevrilir. Sonra o, «köməyə gəlin, köməyə gəlin», — deyə səslənir. İnstitutdan çıxan bir neçə nəfər elmi işçi Gərayın qoluna girib onu aparırlar.

## ÜÇÜNCÜ ŞƏKİL

İnstitutda laboratoriya. Ətrafda müxtəlif cihazlar görünür. Əyninə ağ xalat geymiş Stella bir parça metalı sınaq şüşəsinə salaraq ştativdən asır. Bu zaman Rasim otağa daxil olur

S t e l l a. Xəbərin varmı, Moskvadan məktub gəlib.

R a s i m. Haradandır, Stella? Nə yazırlar?

S t e l l a. Metallar fizikası institutunun direktoru Konovalov şəxsi məktub göndərib, deyəsən bizim təzə xəlitə yaman xoşlarına gəlib.

R a s i m. Gərayın xəlitəsi?

S t e l l a. Xəlitə haradan Gərayınkı oldu, Rasim? Özü xəstə yatmışdı, heç xəbəri də olmadı ki onu kim yoxladı, kim sınaqdan keçirdi. Başqası olsa bəlkə də öz adına çıxardı. Amma Gəray sənin dilindən düşmür.

R a s i m. Bəsdir, Stella. Adam qəlbi qara olmaz, yoldaşa da paxıllıq eləyərlər?

S t e l l a. Demək sözün düzünü danışanda paxıl olur? Səhərdən axşama rentgen aparatı dalında oturmaqdan qanın da quruyub. Amma sən afərin deyən yoxdur.

R a s i m. hm. Qəribə sözdür. Guya burada zəhmət çəkən təkcə mənəm. Kişinin az qala gözləri də kor olmuşdu. Bəs onun zəhmətini niyə yerə vurursan?

S t e l l a. Yaxşı deyiblər ki, aşı bişirən yağ olar, gəlinin üzü ağ olar. Sən çalış, yoxla, səhərdən axşama hambal kimi işlə, qoy başqasının adı çıxsın.

R a s i m. Elə burda sənin kimi beş-altı olsa institutun üzü lap ağ olar. Boşla, Stella axmaq söhbəti. Onu bil ki, Gəray mənim ən sədaqətli dostumdur. Ancaq yanında bir az xəcalətliyəm. Bir aydır xəstəxanada yatıb cəmi bircə dəfə yanına gedə bilmişəm. İndi gərək bu günlərdə çıxsın.

S t e l l a. Doğrudan yaman xəcalətlisən. Rasim mən sənin yerinə həya təri tökürəm. Belə də insanlıq olar, sən eləmisən?

R a s i m. Səni deyəsən ancaq indi tanımağa başlayıram, Stella. Mənə elə gəlir ki, müvəqqəti olan Gəray deyil, mənəm. Bu söz-söhbətlə gözü elə açdın ki, daha mənə heç bir həkim dava-dərmanı lazım deyil.

Stella nə isə demək istəyir. Bu zaman bayırda hay-küy eşidilir. Gəray, professor və bir neçə nəfər elmi işçi otağa daxil olurlar.

G ə r a y *(Rasimə).* Necəsən, Rasim, işlərin necə gedir?

R a s i m. Ay xoş gördük, qardaş, həmişə ayaq üstə. canın-başın sələmətdirmi?

G ə r a y. Görürsünüz də, canım lap polad kimidir.

P r o f e s s o r. Polad yox, düzəltdiyin kimi. Dünən professor Konovalovdan məktub şıq. Yeni xəlitə böyük müvəffəqiyyət qazanıb. Serkeyeviç bütün kollektivi, xüsusilə səni ürəkdən təbrik eləyir.

G ə r a y. Yox, ay canım, məni utandırmayın. Bu təbriklər mənə yox, sizə aiddir, qardaşlar.

E l m i i ş ç i. Təvazöкarlıq eləmə, Gəray. Gözlərinin işığını elm yolunda qoyan bir adama alqış müкafatıdır.

S t el l a. Sizi təbriк edirəm, yoldaş İbrahimov!

G ə r a y. Çox sağ olun, Stella xanım. Nə olub rəsmi tona кeçmisiniz, hə, Rasim, toyunuz nə vaxtdır?

Ra s i m. Əşi, heç soruşma, belə getsə heç vaxt.

G ə r a y. Yenə nə olub, aranızdan yel ötüb?

R a s i m. Deyəsən, xasiyyətimiz çətin tutacaq, Gəray.

S t e l l a. Xasiyyətimiz yox, xasiyyətim.

R a s i m. Qoy sən deyən olsun, elə iкisi də eyni şeydi də.

S t e l l a. Doğrudan səninlə dil tapmaq çətin məsələdir *(кəsкin hərəкətlə qapını açıb qonşu otağa girir).*

G ə r a y. Bənd olma, Rasim, gəncliк dövrüdür, keçib gedər. Bir də mənə qalırsa, qız nə qədər dəlisov olsa bir o qədər yaxşıdır. Özünü daha çox istədər, elə deyilmi, professor?

P r o f e s s o r. Düzü bu suala cavab verməyə acizəm, Gəray. Belə bir sualı qırx il bundan əvvəl mənə verən olsaydı, ona romantiк xəyallarla, xoş arzularla dolu bir cavab verərdim. Ancaq müharibə məni təкcə fiziкi cəhətdən yox, mənəvi cəhətdən də şiкəst elədi. Mən bir növ elm abidinə çevrildim. Bu sahəyə 1 dənə sualınız varsa, cavab verməyə hazıram.

G ə r a y. Yaxşı bu... bu yeni xəlitə barədə nə deyə bilərsiniz, professor? Bu məsələ barədə çox az şey bilirəm. Dünənə кimi gözlərim bağlı idi. Gözümü açandan sonra da həкimlər bir şey oxumağa icazə verirdilər. İndi görəк...

P r o f e s s o r. Çox böyüк кəşfdir. Düzü mənim özümün də gümanım az idi кi, iş belə yaxşı nəticə versin. Hər halda bu xəlitə texniкada inqilab da olmasa böyüк dönüş yaratmağa imкan verir. Indi atomun enerjisindən təyyarələrdə də, кüçə nəqliyyatınla da, кosmiк gəmilərdə də geniş istifadə oluna bilər.

G ə r a y. Bax, bu məsələ məni hər şeydən çox maraqlandırır. Bəs onun nöqsan cəhətləri barədə nə bilirsiniz?

P r o f e s s o r. Hələlik bu barədə qəti fikir söyləmək çətindir. Gəray, gərək ondan mühərriklər hazırlansın, sınaqdan keçirilsin. Onda hər şey aydın olar. Hələlik bizə məlum olan budur ki, yeni xəlitənin oksigenə davamlılığı azdır. Bu nisbətən kiçik nöqsandır. İndi Rasimlə Sergey bu kəsir cəhəti aradan qaldırmaq üçün çalışırlar.

R a s i m. Hər halda yel yola doğrudur, Gəray. Holter demişkən dünyaların ən yaxşısı olan bizim dünyada hər şey yaxşılığa doğru gedir.

G ə r a y. Əhsən bu kəlama! *(gülüşürlər)*

Poçtalyon qapını açıb içəri girir.

P o ç t a l y o n. Buyurun, bu teleqram sizə çatacaq *(gedir)*.

Professor teleqramı alıb astadan oxuyur. Sonra birdən səsini ucaldır.

P r o f e s s o r. Oho, səni təbrik eləyirəm, Gəray. Budur, səni Moskvaya kosmonavtika institutuna çağırırlar. Bax, bu başqa məsələ, Rasim demişkən yel yola doğrudur.

G ə r a y. Orda nə yazılıb, professor?

P r o f e s s o r. Budur, oxu!

G ə r a y. *(teleqramı astadan oxuyur).* Kosmik metallurgiya institutunun baş elmi işçisi, mineralogiya elmləri namizədi, Gəray İbrahimov bir ilin müddətinə Moskvaya kosmonavtika institutuna çağırılır. Onun...

R a s i m. Hə, buna deyiblər ki, axtardığın yar di, yetirdi pərvərdigar. İşin düzəldi, qardaş. İndi bu şad xəbər üçün gərək boğazımızı isladasan. Gedim, bu təzə xəbəri uşaqlara danışım.

P r o f e s s o r. Demək belə, mənim assistentim göylərə uçacaq.

G ə r a y. Kim bilir professor, bəlkə başqa iş üçün çağırırlar.

P r o f e s s o r. Yox Gəray, hər şey aydındır. Kosmonavtika institutu şoferlik kursu deyil. Oradan keçən yol birbaş ulduzlara uzanır. *(Pauza)* . Sənin kosmonavt olmağını mən həmişə ürəkdən arzulamışam. Ancaq indi səni heç buraxmaq istəmirəm. Kim bilir bir də neçə ildən sonra qayıdacaqsan. Görüşmək bizə müyəssər olacaqmı?

G ə r a y. Ürəyinizi sıxmayın, professor. Yüz yaşınız qeyd olunan məclisdə özüm saqilik edəcəyəm.

P r o f e s s o r *(gülümsəyir).* Yox oğlum, yetişmiş bir meyvəyə bənzəyirəm. Yetişən meyvə budaqda çox qalmaz. Ancaq onunla sevinə bilərəm ki, əyilsə də başqa birisinə qanad verə bilmişsə əlimdən düşən həyat bayrağını qaldırıb uzaqlara aparacaqsan. Bax, qoca yaşımda qoluma gözümə işıq verən də elə bu fikirdir.

F i r u z ə daxil olur.

F i r u z ə. Salam, professor, Gəray da buradır ki. Ürəyimə dammışdı, elə-belə olacaq.

G ə r a y. Ürəyinə nə dammışdı, ay qız?

F i r u z ə. Heç zad. Xəstəxanadan çıxan ki baş qaçmısan bura. Demirsən ki, daha evim var,eşiyim var. Gözü yolda qalan balam var.

G ə r a y. İndi gəl insafla danışaq, ay Firuzə. Evdə iki adamın gözü yoldadır, burda qırx iki adamın. İndi gür tərəzinin hansı gözü ağırdır.

F i r u z ə. Tərəzi... Kaş dünyada elə bir tərəzi tapılaydı ki, sənin insafını çəkə biləydim. Onda bilərdim ki, ev-eşiyə niyə belə soyuqsan.

G ə r a y. Yaxşı, yaxşı, az üzümü danla Təzə xəbəri eşitmisənmi?

F i r u z ə. Yenə nə olub?

G ə r a y. Məni Moskvaya çağırırlar.

F i r u z ə. Yəqin yenə də elmi konfrans var,hə?

G ə r a y. Yox, canım, elmi konfrans nədir kosmonavtika institutuna çağırırlar.

F i r u z ə. Sən də zarafat eləməyə vaxt tapmısan.

G ə r a y. Düz sözümdür, Firuzə. İnanmırsan professor Qarayevdən soruş. O, hamısını danışar.

F i r u z ə. Bu nə danışır, professor?

P r o f e s s o r. Düzdür, qızım, Gərayı Moskvaya çağırırlar.

F i r u z ə. Özü də kosmonavtika institutuna?

P r o f e s s o r. Elədir, qızım, Gəray qoçaq oğlandır.

F i r u z ə. Mən razı deyiləm professor.

P r o f e s s o r. Niyə qızım? Gəray kosmonavt olada nə olar ki.

F i r u z ə. Eh, professor, sabah da deyəcəklər ki, filan ulduza. Mən də qalacağam burda ürəyimin yağını yeyə-yeyə. Dilim-ağzım qurusun, başına bir iş gələr, sonra onun körpəsinə nə cavab verərəm.

P r o f e s s o r. Ulduza uçanda nə olar, qızım, vaya-zada getmir ki...

Gə r a y. Yəni məndən axır xahişin nədir, Firuzə?

F i r u z ə. Belə otur evində-eşiyində. Bir parça çörək pulu qazanırsan, bəsdir. Dolanışığımız ki, yaxşıdır.

G ə r a y. Ev-eşik..çörək pulu..Bilirsən yadıma düşdü, Firuzə. Uşaq vaxtı tez-tez balıq tutmağa gedərdim. Tilova taxmaq üçün soxulcanı həmişə peyinlik yerdən yığardım. Ona görə ki, peyinlik yerin soxulcanı həm yağlı olur, həm qırmızı. Mənə soxulcan həyatı lazım deyil, Firuzə, bildinmi?

**P**rofessor gülümsəyib başını tərpədir. Firuzə heyrətlə çiyinlərini çəkir.

PƏRDƏ

## İKİNCİ PƏRDƏ

"Kainat gəmisi" Veneraya doğru uçur. İlluminatordan ulduzlu göy qübbəsi görünür. Kosmonavt paltarı geymiş Gəray, kapitan Yikolay Zerkalov, şturman İqor Konstantinoviç və gəmi həkimi Teymur Ağayev kreslolarda öz yerlərini tutmuşlar. Radiodak həzin musiqi səsi eşidilir:

Süzərək bir çox ox kimi ağuşunda göylərin,
Biz uçuruq, arxada qoyub Ayı bürcünü.
Kəhkəşanlar parlayır, buludsuz göy qapqara,
Biz isə hey uçuruq, uçuruq uzaqlara.

Bu zaman qəbuledicinin üzərindəki mavi neon lampası yanıb-sönməyə başlayır.

Z e r k a l o v. Kosmik institutdan məluıat istəyirlər. İqor Konstantinoviç. Son göstəriciləri bildirin.

İ q o r K o n s t a n t i n o v i ç. Yüksəklik on bir min altı yüz kilometr, planetə meyl bucaqları həştad üç dərəcə 40 dəqiqə və 126 dərəcə iki dəqiq sürət saatda qırx min kilometr.

T e y m u r. hə, Gəray, saatda qırx min kilomet neçədir, döşünə yatırmı?

G ə r a y. Pis deyil, ancaq azdır.

T e y m u r. Azdır?

G ə r a y. Əlbəttə azdır, belə sürətlə Günəş sistemindən kənara çıxmaq olmaz.

T e y m u r. Görəsən, insan qədər də naşükür məxluq varmı? Cəmi yüz əlli il bundan qabaq nə avtomobil vardı, nə də təyyarə. Parovoz da təzəcə ayaq açırdı, onun da sürəti nə idi? Saatda beş kilometr! Amma bir saatda qırx minlə uçuruq. Deməli, sürət səkkiz min dəfə artıb yenə deyirlər azdır.

G ə r a y. İnsan həyatda olanla kifayətlənsəydi onda gərək daş balta ilə ox-yaydan savayı heç nəyim olmayaydı.

Z e r k a l o v *(radio ilə yerə məlumat verilir)* Yüksəklik iyirmi dörd min iki yüz kilometr. Gəmidə təzyiq yeddi yüz əlli səkkiz millimetr. Hərarət iyirmi bir. Uzaqlaşma sürəti saniyədə on kilometrə enmişdir.

T e y m u r. Kifayətdir, Nikolay Afanasyeviç. Bizə indi elmi məlumatdan çox iqtisadi məlumat lazımdır. Gəlin bir toqqanın altını yaxşı bərkidək. Venera bizim əlimizdən heç yerə qaçası deyil.

Z e r k a l o v. Tələsmək lazım deyil, Teymur Ağayeviç. Yeməyə də vaxt tapılar. Hər halda gərək elmi proqramı yerinə yetirək.

T e y m u r. Canım, mən gəmi həkimiyəm, ya yox. Demək, siz üçünüz də mənim xəstəmsiniz. Həkimin , dediyi xəstə üçün qanundur.

Ş t u r m a n. Xeyr əzizim, xoşbəxtlikdən qarnını balıq kimi yardığınız o xəstələrdən deyilik. Biz elm xəstəsiyik. Onun üçün də evdən-eşikdən əl çəkib qırx milyon kilometrdəki planetə uçuruq.

T e y m u r. Nikolay Afanasyeviç, vallah lap hər yerə özünüzü öldrürsünüz. Veneraya altı aylıq yolunuz var. Ancaq bu yolun hər qarışını avtomat stansiyalar öyrənib. İqor Konstantinoviç, siz daşı ətəyinizdən tökün. Siz o pultun arxasında oturarsınız da,oturmasanız da gəmi öz yolu ilə uçacaq. Şofer deyilsiniz ki, adam-zad basmaqdan ehtiyat eləyəsiniz. Hə, Gəray, sən nə deyirsən?

G ə r a y. Məni düşündürən başqa şeydir. Teymur, deyirəm görəsən dünyada bekarçılıqdan böyük dərd varmı. Mən mineroloqam. Deməli, ayağımız Venera torpağına dəyənə kimi görməli heç bir işim qalmayıb.

T e y m u r. hə, elə isə bir yaxşı nahar eləyək, hər şey yadından çıxsın. Qaldı ki, bekarçılıq, ondan da qorxma, söhbətlə yola nərdivan qoyarıq.

Z e r k a l o v. Dedim ki, tələsmək lazım deyil, Teymur Ağayeviç. *(Teymur qonşu otağa keçir, padnosda bir neçə qab xörək gətirib ortalığa düzür. Süfrəni qaydaya salır.)*

T e y m u r. İndi daha tələsmək lazımdır. Görürsünüz sizə necə xörək hazırlamışam, Barmaqlarının beşini də yalayacaqsınız.

Ş t u r m a n. Yəni deyirsiniz bu xörəyi biz əllə yeyəcəyik, yoxsa, çəngəl-bıçağı yerdə yadından çıxartmısan? Nikolay Afanasyeviç, stola yaxın oturun. Görək bizim həkimin aşpazlığı necədir.

Onlar stol arxasında əyləşirlər. Teymur duzdan bir çimdik götürüb xörəyə atır. Dərhal onu asqırmaq tutur. Qaşıq Teymurun əlindən çıxıb yüngül bir quş tükü kimi havada uçmağa başlayır. Səyyahları gülmək tutur.

Z e r k a l o v. Teymur Ağayeviç, unutmayın ki, bizim gəmidə bütün əşyalar çəkisizdir. Əgər altı maqnitli çəkmələr ayağımızda olmasaydı, özümüz də bu qaşıq kimi havada uçardıq. Ona görə də xörəyi duzlamaq üçün gərək qaşığı isladıb duzu onunla götürəsən. Bax, mənim bu sözümü yadından çıxarma: tələsmək lazım deyil.

T e y m u r. Burda düz demirsiniz, Nikolay Afanasyeviç, xörək soyuyur, tələsmək lazımdır.

G ə r a y. Ay Teymur, elə səhərdən pəh-pəhlə bu xörəyi tərifləyirdin, bunun ki, nə dadı var, nə duzu.

Ş t u r m a n. Yadımdadır. Bir dəfə mən institutda oxuyanda aşpazımız xəstələnmişdi. Çarəsizlikdən qabyuyan arvadı xörək bişirən qoymuşdular. Elə eyni ilə bu borşa oxşayan bir xörək bişirmişdi.

T e y m u r. Görəsən, dünyada aşpaz qədər də üzü danlanan bir məxluq varmı? Yaxşı xörək bişirəndə deyirlər borcundur. Vay o günə ki, xörək balaca qaydasında olmaya, bir mərəkə qopur ki, gəl görəsən. Yeməkxanada nahar eləyirsən, bir də görürsən biri əlini stola döyüb deyir: «Tez aşpazı bura çağırın!» Yazıq aşpaz da qıçları əsə-əsə gedir ki, görəsən nə olu nə görsə yaxşıdır, qayğanağın içində balaca bir yumurta qabığı qalıb, ya da borşa milçək qanadı düşüb. Aşpaz istəyir xörəyi dəyişdirsin, müştəri iiki ayağını bir başmağa dirəyib deyir lazım deyil. Tez ol, şikayət kitabını gətir.

Ş t u r m a n: Amma görürsən biz necə alicənab müştəriyik, heç səndən şikayət kitabı da istəmirik.

Z e r k a l o v. Hər halda şərait nəzərə alınmalıdır. Bir də ki, tələsmək lazım deyil, yerə qayıdan da bu məsələni iclasa qoyarıq.

Şturman idarə pultunun arxasına keçir. Onun qarşısında mavi neon lampası yanıb-sönməyə başlayır. Şturman qəbuledicini düyməsini burur. Reproduktorun səsi eşidilir.

R e p r o d u k t o r d a n səs. «Kainat gəmisi» Kainat gəmisi, bizi eşidirsinizmi? Sizinlə danışan Ay rəsədxanasının rəisi Valentin Deryabindir. Əziz səyyahlar, özünüzü necə hiss edirsiniz?

Z e r k a l o v. *(Ağzını mikrafona tutaraq)*. Salam, Valentin Vasilyeviç. Hələlik hər şey öz qaydasındadır. Uşaqlar hamısı özlərini əla hiss edirlər. Siz necəsiniz, nə ilə məşğulsunuz?

R e p r o d u k to r d a n səs. Aydınlıq dənizdə tədqiqat aparırıq. İşlərimiz çox yaxşı gedir. Bu gün Gənc qvardiya zirvəsindən qiymətli bir arxeoloji sənəd tapmışıq. Heç bilirsiniz nədir? Əlli doqquzuncu ilin sentyabrında SSRİ-dən Aya göndərilən vimpel. Bu yaxınlarda yerə qayıdan «Albatros» raketi ilə onu kosmonavtika institutuna göndərəcəyik. Qiymətli yadigardır.

Z e r k a L o v. Sevindirici xəbərdir. Afərin uşaqlar, yaxşı işləyirsiniz. Vımpelini tapan əməkdaşları bizim adımızdan təbrik edin,.

S ə s. Mütləq edərik. Ancaq bu saat onlar radiopelenqasiya ilə sizin gəminizin koordinatlarını müəyyənləşdirirlər. Hazırda gəminiz bizdən iyirmi bir min üç yüz qırx kilometr aralı uçur. Bir saatdan sonra bu məsafə iki dəfə qısalacaq.

Z e r k a l o v. Demək, bizi gözdən qoymursunuz. Göstərdiyiniz qayğıya görə sizə minnətdarıq.

S ə s. Əlbəttə, gözdən qoymuruq. Veneraya gedib çatandan sonra da sizinlə hər gün əlaqə saxlayacağıq.

Z e r k a l o v. Tələsmək lazım deyil, Valentin Vasilyeviç. Veneraya hələ altı aylıq yolumuz qalıb. Sağ olun.

S ə s. Siz də sağ olun.

G ə r a y *(pəncərədən Ayı seyr edir)*. Necə də yaxındır, elə bil əlini uzatsan çatacaq. Eh, indi yəqin Gülnazla Firuzə də yatmayıblar. Bizi düşünürlər. Görəsən indi bilirlərmi ki, biz Ayın yanından ötüb keçirik. Eh... *(O, kresloya yıxılıb mürgüləyir, kabinədə işıq azalır. Gəray yuxu görür).*

Gərayın evi. Firuzə pəncərə qarşısında oturub tikmə tikir. Gülnaz şəkilln kitaba baxır.

F i r u z ə. Get, yat, ay qız, gecə keçir. Səhər oyana bilməzsən, məktəbə gecikərsən. Axı, sabah birinci dəfə dərsə gedəcəksən.

G ü l n a z. Anacan, qabaqlar deyərdin ki, səni birinci dəfə məktəbə atan aparacaq. Bəs o, niyə qayıtmır?

F i r u z ə. Atan, Aya, ulduzlara uçub qızım.

G ü l n a z. Bəs atam oradan nə vaxt qayıdacaq?

F i r u z ə. Tez qayıdar, lap tez qayıdar. O, Aydan sənə qırmızı bir çanta da alıb gətirəcək.

G ü l n a z. Onda qoy atamı çağırım, tez gəlsin. O, Aydan mənim səsimi eşidər. *(Gülnaz pəncərənin qabağına gəlir.)* Ata! Ata!

İşıq sönür, «Kainat gəmisi»ndə işıqlar yanır.

G ə r a y *(kresloda çevrilərək astadan)*. Qızım, gəl yanıma!..

T e y m u r *(stolun üstünü təmizləyir, sonra onu oyadır)*. Deyəsən ev üçün xiffət eləməyə başlayırsan, Gəray. Əgər bu səyahət döşünə yatmırsa, qabaqkı stansiyada düşüb geri qayıdarsan, yaxşımı!

G ə r a y *(köksünü ötürərək)*. Yuxu görürdüm. Teymur, qızım yuxuma girmişdi. Çox zaman biz uzaq göylərə yol tapa bilirik. Ancaq öz yaxın adamımızın ürəyinə yol tapmaqda çətinlik çəkirik. Yazıq Firuzə mənə həmişə təkcə bir qadın kimi yox, ana kimi qayğı göstərirdi. Ancaq mən...

bilirsən Teymur, bəlkə körpəlikdən yetim qaldığım üçün məndə belə qəribə xasiyyət yaranıb.

T e y m u r. Hansı xasiyyət, ay Gəray?

G ə r a y. Bilirsən, Teymur, məndə başqalarına qarşı o qədər də dərin həssaslıq yoxdur. Bununla belə başqalarından da özümə qarşı xüsusi həssaslıq, dərin qayğı tələb eləmirəm. Səndən nə gizlədim, biri mənə həddindən artıq qayğıkeşlik göstərəndə əsəbləşirəm.

T e y m u r. Baho, onda bizim dostluğumuz heç tutmayacaq, görünür sən bir az tənhalığı sevənsən. Ancaq tək-tənha xəyala gedəndə mənim əlimdən yaxa qurtar bilməyəcəksən. Mənim fikrim budur ki, işləyən maşına yağ lazım olduğu kimi insana da vaxtaşırı şənlənmək lazımdır. Optimist olmaq insana inam verir, onu cavanlaşdırır.

Z e r k a l o v. Bəs belə isə niyə başında bir dənə də tük qalmayıb, Teymur Ağayeviç?

T e y m u r. Nikolay Afanasyeviç, başımda saç olsaydı, onun tökülməsinin dərdini çəkərdim. Ancaq saç olmayandan sonra nəyin dərdini çəkəsən. Odur ki, kefim də kökdür.

Hamı gülüşür. Bu zaman illuminatorun qarşısında qığılcımlar yanıb-sönməyə başlayır.

Ş t u r m a n. «Kainat gəmisi» meteor selinə düşmüşdür, Nikolay Afanasyeviç.

Z e r k a l o v. Aydındır, biz indi meteor topasından keçirik.

T e y m u r. Gəmini bir balaca yolundan döndərmək olmazmı, Nikolay Afanasyeviç?

Z e r k a l o v. Tələsmək lazım deyil, Teymur Ağayeviç, uçuş marşrutunu dəyişmək daha pis nəticə verə bilər. Sonra biz Veneraya gedib çıxmarıq.

Bu vaxt qonşu kabinədə şaqqıltı eşidilir.

Z e r k a l o v. Skafandrları geyin, tez!

T e y m u r. Bəlkə heç tələsmək lazım deyil, Nikolay Afanasyeviç?

Z e r k a l o v. Zarafatı boşlayın, Teymur Ağayeviç, tez geyinin.

Şturman cəld qonşu kabinəyə atılır, az sonra onun qışqırtısı eşidilir.

Ş t u r m a n. Meteor hava tənzim edən qurğunu partlatmışdır, Nikolay Afanasyeviç, tez köməyə gəlin.

Zerkalov və Teymur qonşu kabinəyə keçirlər. Gəray da getmək istəyir. Zerkalov əlinin hərəkətilə onu dayandıraraq deyir.

**Z** e r k a l o v. Tələsməyin, Gəray Qasımoviç, siz burada qalın, idarəetmə pultunun yanında. Lazım olsa də çağırarıq.

Gəray pultun arxasına keçir. O, qarşıdakı ekran və siferblatları nəzərdən keçirib öz-özü ilə danışırmış kimi astadan.

G ə r a y. Demək uçuruq, sürət saniyədə dörd tam onda yeddi kilometr. Veneranın yolunu az qala yarı eləmişik. Kim bilir bizi orada nələr gözləyir, fəlakət, yoxsa səadət! *(pauza).* Fərqi yoxdur. Mən hər ikisinə də razıyam. Ömür insana bir dəfə verilir. Əgər Həyata üç dəfə gəlsəydim, bütün ömürlərimi elə bu cür keçirməyə razı olardım... Yer uzaqlarda qalıb, biz əbədi Günəş ölkəsinə gəlib çıxmışıq.Bir tərəfdə də sönməyən Günəş, bir tərəfdə də Venera bədrlənmiş ay kimi şəfəq saçır. Venera...

Uzaqdan nənəsinin sözləri onun qulağına gəlir.

N ə n ə n i n s ə s i. Bax, o sənin bəxt ulduzundur: bala, görürsən necə parlaqdır, sənin də bəxtin elə işıqlı olacaq.

G ə r a y *(öz-özünə astadan)*. Bəxt.ulduzu!..

Şturman, Teymur və Zerkalov kabinəyə qayıdırlar. Üzlərində qoy görünürki, yorğundurlar.

Ş t u r m a n. Hər şey öz qaydasındadır. Polad borunu rezinlə əvəz eləmək lazım gəldi.

T e y m u r. Bəli, təhlükə sovuşdu. İndi Venera öz sevimli qonaqını qarşılaya bilər.

Z e r k a l o v *(pəncərədən baxaraq).* Bəli, Yerin işığı azaldıqca Veneranın şəfəqləri artır. Qarşınızda sirli, həm də maraqlı bir aləm açılır. Ancaq, nədənsə, bu aləmə yaxınlaşdıqca ürəyimdə narahatlıq artır.

T e y m u r. Narahat niyə olursunuz, Nikolay Afanasyeviç?

Z e r k a l o v . Bunu sözlə demək çətindir, Teymur. Bəlkə də bu ondandır ki, indiyə kimi Veneraya insan ayağı dəyməyib, xülasə, yaşayarıq görərik. Tələsmək lazım deyil.

Ş t u r m a n *(qulaqlığı başından çıxarır).* Qəribə radio siqnalları eşidirəm, Nikolay Afanasyeviç.

Z e r k a l o v. Doğrusu, o qədər radio siqnalı eşitmişəm ki, «qəribə siqnal» sözünə inanmıram.

Ş t u r m a n. Qəribəliyi ondadır ki, bunlar qətiyyən Yer siqnallarına oxşamır. İkincisi də onlar Yerdən gəlmir, Günəş tərəfdən gəlir.

Z e r k a l o v. Bəlkə Günəş radiasiyasıdır!

Ş t u r m a n. Yox, radiasiyada belə uzun siqnallar olmur, qulaq asın. *(O, qəbuledici cihazı gücləndirir. Otağı əcaib səslər bürüyür.)*

Z e r k a l o v *(öz-özünə danışırmış kimi).* Günəş tərəfdən, Venera tərəfdən siqnal... bu nə ola bilər *(səsini ucaldır).* Məncə qəti fikrə gəlmək tezdir, İqor Konstantinoviç, siz bunu da açılmalı olan sirlər sırasına daxil edin. Nəticə çıxarmaq üçün tələsmək lazım deyil, yaşayarıq görərik.

## Pərdə

### ÜÇÜNCÜ PƏRDƏ

Venera torpağı. Uzaqda, dərənin arasında yerə enmiş «Kainat gəmisi» görünür. Əyinlərində kosmonavt paltarı olan Gəray və Zerkalov yavaş-yavaş irəliləyirlər. Zerkalov əyilib bir torpaq götürür, onu bərk-bərk sinəsinə sıxır.

Z e r k a l o v. Bu da Venera torpağı, adicə qara torpaqdır, elə bil bizim doğma Karpat meşələrindən götürülüb.

Ş t u r m a n. Çox az oxşarı var, Nikolay Afanasyeviç. Burada Günəş də, hava da, bitkilər də hələ sən torpaq da bizə tamamilə yaddır.

G ə r a y. Ancaq burda vəhşi bir gözəllik var; Dostlar, heç inanmaq olmur, demək, başqa bir dünyaya gəlib çıxmışıq. Torpağın üstündə qalan da bizim izlərimizdir.

Z e r k a l o v. Nədənsə xatirimə köhnə bir mahnı düşdü:

Karvanını çəkib raketlərin,
Ulduzdan-ulduza uçacağıq biz.
Gəzib sinəsində planetlərin,
Tozlu cığırlara salacağıq iz.

T e y m u r. Bəli, tozlu cığırlara salacağıq iz. Ancaq məni öz ləpirlərimdən çox Venera canlılarının izi maraqlandırır.

G ə r a y. Səni maraqlandıran hansı ləpirdir, Teymur?

T e y m u r. Sizdən nə gizlədim, konservlər məni bezdirib, təzə ətdən ötrü lap burnumun ucu göynəyir, qoşa dırnaqlı bir Venera heyvanına rast gəlsəydik onun daxili quruluşu ilə tanış olmamış kababının dadına baxardıq.

Z e r k a l o v. Ancaq səni inandırıram ki, bizi görən iti caynaqlı Venera heyvanları da düşünəcəklər bu maskalı məxluqların əti necədir?

Səyyahlar gülüşürlər. Bu vaxt kolluqda xışıltı eşidilir. Şturman kəmərindən pistoletə oxşar bir şey çıxarır.

Z e r k a l o v. Lazım deyil, İqor Konstantinoviç. Mezon pistoletini işə salmağa tələsməyin. Biz bu planetə qan tökməyə gəlməmişik.

G ə r a y. Sss... sakit olun, kolluqda nə isə tərpənir.

T e y m u r. Külək deyil. Nəsə ayrı şeydir. Ancaq öz aramızdır, yanımızda odlu silah olsaydı, daha yaxşı olardı. Bütün heyvanlar odlu silaha sitayiş eliyirlər.

G ə r a y. Düz deyirsən, Teymur. Veneranı deyə bilmərəm, amma bizim doğma Yer kürəsində odlu silahı qazanc götürən heyvanlar, ona bütün tarix boyu sitayiş ediblər.

Ş t u r m a n. Fəlsəfəni sonraya saxlayın, Gəray İbrahimoviç, yolçu yolda gərək. Heç olmasa o təpəyə qədər gedək, sonra...

Birdən kolluqda nərilti eşidilir. Bədəninin bir hissəsi qamışların arasından görünən əcaib bir heyvan səyyahların üstünə sıçramağa hazırlaşır. Şturman mezon pistoletini yuxarı qaldırır. Qəribə bir ciyilti eşidilir. Pistoletin üstündəki qırmızı gözcük üç dəfə yanıb-sönür. Heyvan yerə sərilərək hərəkətsiz qalır. Teymur vurulmuş heyvanın üzərinə əyilərək ovu gözdən keçirməyə başlayır.

Ş t u r m a n. Vaxt itirməyə dəyməz, Teymur Ağayeviç, bu işlə geriyə qayıdanbaş məşğul olarsınız, hələlik o təpəliyə yetişməliyik. Oradan böyük bir sahəni aydın görmək olar.

Z e r k a l o v. Tələsmək lazım deyil, İqor Konstantinoviç. Məncə biz gəmini nahaq yerə kimsəsiz qoyub gəlmişik. Venera ilə hələ yeni tanış olmağa başlayırıq. Hər ehtimala qarşı birimiz gəmiyə qayıtmalıyıq. Teymur, hələlik bu işi mən sənə həvalə edirəm.

T e y m u r. Məncə təşvişə düşmək nahaqdır, Nikolay Afanasyeviç. Hələlik burda özümüzdən başqa şüurlu canlıya təsadüf eləməmişik.

Z e r k a l o v . Elə özümüzü də əsil şüurlu o vaxt bilərik ki, gəmini yiyəsiz qoymayaq.

T e y m u r. Onda bu işi Roqova həvalə edin, Nikolay Afanasyeviç. O, gəmi texnikasını məndən yaxşı bilir, lazım gəlsə uçub harayımıza da yetişər.

Z e r k a l o v . Məncə siz haqlısınız, Teymur Ağayeviç. Yoldaş Roqov gəmiyə qayıdın. Ancaq bizi radio nəzarətindən buraxmayın.

Ş t u r m a n . Oldu, Nikolay Afanasyeviç, mən hazır.

Şturman «Kainat gəmisi»nə qayıdır. Gəray, Zerkalov və Teymur isə təpəyə yola düşürlər.

Ş t u r m a n . Deməк, mən indi tək-tənhayam. Yad bir dünyada tək qalmaq xoşa gələn hal deyil.

O, getmək istəyir. Bu zaman uzaqdan çaxır, göy gurultusunu, həm də reaktiv motor uğultusunu xatırladan səs eşidilir.

Ş t u r m a n. Burada göy də başqa cür guruldayır. Doğrudan da burada hər şey özgə cürədir. *(O, yerə doğru əyilir.)* Bu ilan qabığına oxşayan şey yəqin ki, bitkidir. Bəlkə də heyvandır. Nə isə bu əcaib dünyada adam bir şeyə əl vurmağa da ehtiyat eləyir. Təbiət orada necə də vəhşidir. Yox, mən onları gözdən qoyub gəmidə veyillənə bilmərəm.

Şturman daş üzərində əyləşərək binoklu gözlərinə tutur. Səyyahların getdiyi istiqamətə baxmağa başlayır. Bu zaman arxadan ı kölgə görünür. Üst-başı cır-cındır olan bir qadın ehtiyatla ona yaxınlaşır. Bir müddət vəhşi nəzərlərlə onu seyr edir. Sonra qadın cəld çevrilib «Kainat gəmisi»nin dayandığı iqamətə qaçır. Şturman tez arxaya çevrilir. Ancaq heç kimi görmür. O yerə diqqətlə baxa-baxa irəliləyir. Birdən dayanıb geri çəkilir.

Ş t u r m a n . Bu nədir, yerdə insan ləpiri var. (*Dizi üstə çökərək yenə diqqət yetirir).* Yox, gözlərim məni aldatmır. Necə? Yəni Venerada bizdən savayı insan var? Yox, burda nə isə başqa bir iş var. Hə, tapdım, bu Teymurun

кələyidir. İstəyir кi, məni qorxutsun. Yəqin özü də bu aralarda gizlənib. Ay кələкbaz! *(0, səsini ucaldır.)* Teymur Ağayeviç, кələyini duymuşam, utanma, hardasan. Çıx ağacın dalından.

Cavab gəlmədiyini görən şturman bir neçə addım atır. Birdən onların arasından cındır geyimli qadın görünüb yenə yox olur..

Ş t u r m a n. Deyəsən, məni qara basır, yoxsa xəstələnmişəm. Yox, bunların heç biri ola bilməz. Bəlkə burda da insana bənzər meymunlar yaşayır. Bəlкə gözümə dəyən Venera adamıdır. Yəqin кi, Venera adamı bizə oxşayır *(O, daha bir neçə addım atır. Məchul qadın yox olur. Uzaqda göy gurultusunu, reaкtiv mühərriк uğultusunu xatırladan səslər eşidilir).*
— Yox, görünür məni doğrudan da qara basır. Bu, mümкün olan iş deyil, heç cür mümкün deyil, *(Şturman başını ovucları içərisinə alaraq yerə əyləşir, şam düşür. Səhnədə işıqlar azalır. Bu zaman addım səsləri eşidilir. Teymur, Gəray вə Zerкalov gəmiyə qayıdırlar. Şturman addım səslərini eşidib başını qaldırır).*

T e y m u r. Gəmiyə niyə qayıtmamısan, İqor? Gözümə yaman biкef dəyirsən? Yoxsa bura gəldiyinə peşmansan?

Ş t u r m a n. Teymur Ağayeviç, sizə bir həкim кimi müraciət eləyirəm, görün mənim qızdırmam yoxdur

Teymur yol çantasından кompasa oxşar, кiçiк bir cihaz çıxarıb kosmonavt paltarının üstündən Roqovun qolunda, sinəsində gəzdirir.

T e y m u r *(öz-özü ilə danışırmış кimi).* Hərarət otuz altı, onda yeddi, ürəк döyüntülərinin sayı həştad, tənəffüs dəqiqədə on səккiz, ürəyin кardioqramması da normaldır. *(Səsini ucaldır.)* Yaxşı, şiкayətin nədir, İqor. Mən elə bir şey görmürəm. Bir az həyəcanlısan.

Ş t u r m a n. Bir az yox, lap çox, başıma çox qəribə bir iş gəlib, Teymur Ağayeviç.

Z e r к a l o v. Nə olub, İqor Кonstantinoviç, bəlkə qorxmuşsunuz.

Ş t u r m a n. Düzünü axtarsanız, bir az qorxmuşam, özü də...

G ə r a y. Venera tısbağalarından, hə?

Ş t u r m a n. Yox, Gəray, yarımca saat bundan qabaq torpaq üstündə insan ləpirləri gördüm, özü də yalın ayaq izləri. Əvvəl elə fikirləşdim ki, bu Teymurun kələyidir. Məni şübhəyə salmaq üçün ayaqqabısını çıxarıb beş-on addım ayaqyalın gəzib. Ancaq mənə baxa-baxa gedəndə birdən ağacların dalından mənə sarı boylanan bir qadın gördüm.

Z e r k a l o v. Qadın?

Ş t u r m a n. Bəli, üst-başı cır-cındır içində divanəyə oxşayan bir qadın.

T e y m u r. ha, ha, ha... məsələ aydındır, İqor. Vaxtında evlənməyən subay oğlanların gözünə həmişə belə xəyallar görünür.

Ş t u r m a n. Gülməyin, Teymur Ağayeviç, doğru sözümdür, əsil qadın, insan, başa düşürsünüzmü?

G ər a y. Bəlkə səni qara basıb, İqor?

Z e r k a l o v. Elə bil heç təyyarəsi şimal qütbləri ilə qəzaya uğrayıb bir həftə tək-tənha buzların arasında qalan İqor deyil.

Ş t u r m a n. Məni nahaq yerə qorxaqlıqda ittiham edirsiniz, Nikolay Afanasyeviç. İnanın ki, məni qara basmayıb. Əgər kağız-qələm versəniz, mən bu saat O qadının şəklini çəkə bilərəm. Onun elə iti baxışları vəhşi görkəmi vardı ki...

T e y m u r. Bəlkə küpəgirən qarıdır. Öz süpürgə otu ilə sənin dalınca uçub, hə?

Z e r k a l o v. Tələsməyin, dostlar. Hər şeyi zarafata salmayın. Siz qadını ha tərəfdə görmüsünüz, İqor?

Ş t u  r  m a n. Bax, o ağacın dalında.

Z e r k a l o v. Çətin iş deyil ki, bu saat yoxlayarıq

Zerkalov şturmanın göstərdiyi tərəfə gedirlər. Bu tərəfdə kolların arasından yenə əvvəlki qadın görünür. Şturman qəflətən onu görür.

Ş t u r m a n. Bu odur ki, o.........

G ə r a y . Hanı, İqor Konstantinoviç?

Ş t u r m a n. Bax, görürsünüzmü, odur,o....

G ə r a y.(*sakit, lakin həyacanlı səslə)* Elədir, görürəm.

Gəray, əl hərəkəti ilə Zerkalovu və Teymuru çağırır. Onlar qayıdıb gəlirlər. Qadın yenə gizlənir.

T e y m u r. Nə var, Gəray, yoxsa səni də qara basır?

G ə r a y. İqor Konstantinoviç düz deyir, burada insan var.

Z e r k a l o v. Harda gördünüz, Gəray Qasımoviç?

G ə r a y. Bax, o kolların arasında.

Z e r k a l o v .  Qəribədir, orada heç kim yoxdur.

T e y m u r. Qorxaqlıq da yoluxucu xəstəlik kimi bir şeydir, Nikolay Afanasyeviç.

Bu zaman kolluqda şıqqıltı eşidilir. Zerkalov əli ilə Teymura işarə edir ki, sussun. Qadın kolların arasından çıxıb ürkək addımlarla onlara yaxınlaşır.

T e y m u r. Lənət şeytana, deyəsən elə mənim özümü də qara basır.

Qadın onlara yaxınlaşıb diz çökür, torpağa qədər əyilib təzim edir. Sonra dizi üstə qalxıb deyir:

Q a d ı n. Vektu natul Qrona, Veka natul morbino. *(O, sürünə-sürünə Zerkalova yaxınlaşıb həmin sözləri bir də təkrar edir. Zerkalov onun qolundan yapı şıb qaldırmaq istəyir.)*

T e y m u r. İşiniz olmasın, Nikolay Afanasyeviç. Qoy o bilsin ki, burda tamam azaddır.

Zerkalov dörd dildə ondan soruşur ki, siz kimsiniz. Qadınığ şaşqın baxışları göstərir ki, o, deyilənləri anlamır.

Z e r k a l o v *(səyyahlara).* O, bizim bildiyimi dillərin heç birini anlamır.

Qadın Gərayın qarşısında dizi üstə dayanıb yenə əvvəlki sözləri təkrar edir. «Vektu natul Qrona, Veka havul morbino».

T e y m u r. Deyəsən, mən onu anlamağa başlayıram, Nikolay Afanasyeviç. Məncə onun adı Qronadı «Vektu natul Qrona»nın mənası mənim adım Qrona deməkdir.

Z e r k a l o v . Bu çətin məsələ deyil, gəlin sınayaq. *(Üzünü qadına tutaraq əli ilə özünə işarə edir.)* Vektu natul Nikolay.

Qadının gülümsər baxışları onun bu sözləri anladığını göstərir. O, pıçıltı ilə «Nikolay» deyir.

G ə r a y. Vektu natul Gəray.

T e y m u r. Vektu natul Teymur.

Ş t u r m a n. Vektu natul İqor.

Zerkalov onun qolundan yapışıb ayağa qaldırır.

Z e r k a l o v . Hələlik kələfin ancaq ucunu tapmışıq, qardaşlar. Ancaq onun açılmasına hələ çox var. Bilmirik o haradan gəlib? Təkdir, yoxsa yoldaşları da var? Əsil vətəni haradır?

T e y m u r. Əsil vətəni hər halda Yer kürəsidir, Nikolay Afanasyeviç. Bir bioloq kimi təsdiq edirəm ki, o insandır, əsil homodur. Qalan suallara da bəlkə indi cavab tapdıq. *(0, üzünü qadına tutaraq)* Qrona siz haradan gəlibsiniz? *(O, əllərinin işarəsi ilə soruşur. O, bu sualı bir neçə dəfə təkrar edəndən sonra Qrona onu başa düşür.)*

Q r o n a . An zentri *(bu sözlə o, əli ilə göyü göstərir).*

G ə r a y. Bu sözün mənası ya göy, ya da ulduz olmalıdır.

Z e r k a l o v . İqor Konstantinoviç, zəhmət də olsa, planşetdən qeyd dəftərini çıxarın. Bu vaxta ki ondan eşitdiyimiz sözləri səhifənin bir kənarına yazın. Qabağına da onların ehtimal olunan mənasını Teymur, sizə bir vəzifə olaraq tapşırıram bu gündən Qrona ilə ayrıca məşğul olun. həkimsiniz, insan psixologiyasını yaxşı bilirsiniz. Qronanın dilini açıca1ağı sizə həvalə edirəm.

G ə r a y. Hər halda burda bir sirr var, Nikolay Afanasyeviç.

Z e r k a l o v . Elədir, Gəray, elədir. Ancaq tələsmək lazım deyil. Biz bu böyük sirri açacağıq, hökmən açacağıq.

PƏRDƏ

## DÖRDÜNCÜ PƏRDƏ

## BİRİNCİ ŞƏKİL

Meşədə bir tala. Yanıb kösövə dönmüş kötüklər ətrafa səpələnmişdir. Bir qədər aralıda «Kainat gəmisi» görünür. Gərayı, Teymur və Şturman talanın dövrəsində düzülmüşlər Zerkalov kötük üstündə əyləşmişdir. Qrona da kosmonavt paltarındadır.

Q r o n a. Demək siz mənə inanmır, eləmi?

Ş t u r m a n. İnanmağa inanırıq, Qrona. Ancaq, nədənsə, burda anlaşılmaz şeylər çoxdur.

Q r o n a. Temor, başqaları kimi sən də mənə inanmırsan. Qrona hər şeyi bilir.

T e y m u r. Yox, inanıram, əziz bacım, inanıram. Ancaq insan əqli belə şeyləri qəbul etməkdə acizdir. Xahişimiz budur ki, məsələni lap başdan danışasan.

Q r o n a. Mən Afrikada, özü də karamantlar ölçəsində dünyaya gəlmişəm.

Ş t u r m a n *(pıçıltı ilə).* Afrikada belə yoxdur.

Z e r k a l o v. Sss... Çox qədimdə orada belə bir tayfa olub.

Q r o n a. Bir dəfə Atlantida hökmdarı qoşunla basqın elədi. Çox adam qırdılar. Çoxlu-çoxlu adamları əsir eləyib gəmiyə yığdılar. Bax, bu barmaqlarının sayı qədər qızla məni də Atlant hökmdarı Selvirantoya bağışladılar. Biz gəlib Qrenaldo şəhərinə çıxdıq.

G ə r a y. Atlantida... Qrenaldo. Lap elə bil Platonun fikirləridir.

Q r o n a. Qrona Platon tanımır. Ancaq hökmdar Selvirantonun sarayını tanıyır. O, çox böyük sarayıdır.

Gəray təəccüblə çiyinlərini çəkir.

Q r o n a. Bir gün eşitdik ki, Qrenaldonun o tərəfinə göydən bir gəmi enib. Selviranto dedi ki, yəqin bu keylərin bəlasıdır. Qəzəbli ruhlar göydən eniblər ki, ondan intiqam alsınlar. Hökmdar istədi ki, məni ruhlara qurban verib, yaxasını cəzadan qurtarsın. Onda Qrona gözəl bir qız idi. Onun qollarını bağlayıb gəmiyə sürüdülər. Məni qapıdan içəri salıb özləri qaçdılar. Orda elə qorxulu ruhlar var idi ki, Qrona az qaldı ölsün. Qorxub özümdən getdim. Ancaq Qronanı ruhlar öldürmədi. Görürsünüzmü, o sağ-salamatdır. Mən öyrəndim ki, onlar burmanidlərdir.

Başqa bir günəş dünyasının adamlarıdır. Burmanidlər Qronanı öz dünyalarına apardılar. Orada göydə həmişə iki Günəş yanır. Biri batanda o biri çıxır. Ancaq o dünyanı Qrona xoşlamadı. Burmanidlərə yalvardı ki, onu qaytarsın öz dünyasına. Onlar da məni gətirib bura atdı. Sonra çıxıb getdilər. Siz də Qronanı tapdız.

Z e r k a l o v . Çox sirli tarixdir.

Ş t u r m a n. Lap nağıla oxşayır.

Gəray nə fiкirləşirsə, Qronaya tərəf atılır. Onun yanında diz çöкür.

G ə r a y. Qrona, əziz bacım, sən mələкsən yoxsa And olsun namusuma Qrona nə deyirsə, hamısı gerçəkdir. Baxın, bu qadına yaxşı baxın. Heç biriniz ona qırxdan artıq yaş verməzsiniz. Amma əslində onun yaşı Misirin ən qoca ehramlarından üç dəfə çoxdur. Yəqin heç özü də bilmir кi, əsil yaşı on min ilə yaxındır.

Z e r к a l o v. Gərəк Albert Eynşteyn sağ olaydı. Onda görərdi кi, həyat onun nisbiliк nəzəriyyəsini necə sübut elədi.

Ş t u r m a n. İndi məsələni anladım. Deməli, burmanidlərin gəmisi işıq sürətilə uçub. Ona görə Qrona vaxtın özünü də qabaqlayıb.

T e y m u r. İndi bir məsələni də bizə anlat, Qrona. Necə oldu кi, burmanidlər səni bura кətirdilər?

Q r o n a. Bura Afriкadan çox uzaqdır?

T e y m u r. Nə Afriкa Qronacan? Biz doğma Yer kürəsindən əlli milyon кilometr aralıyıq.

Q ro n a. Eləmi? Ürəyimə dammışdı кi, başqa gəlib çıxmışam. Mənim tanıdığım o otlardan,çiçəklərdən biri də yoxdur.

Z e r k a l o v. Ancaq sən özün bir nadir çiçəкsən dünyanın heç yerində sənin кimisini tapmaq olmaz.

G ə r a y. Bəşər tarixinin canlı şahidi...

T e y m u r. Yad günəş dünyalarını görmüş yeganə insan!

Z e r k a l o v. Mənə elə gəlir кi, bizim Venerada ən böyük кəşfiyyatımız Qrona olacaq.

Ş t u r m a n. Uçuşda baş verən кiçiк xəta üzündən Qnoranı gətirən gəmi gəlib bura çıxıb. Bir təsadüfə bax!

G ə r a y . Nə qədər xoşbəxt bir təsadüfdür.

Q r o n a. Bəs bizim dünyamız necə olub, Temor? Qrona hamısını bilməк istəyir.

T e y m u r. Bunu bir-iкi кəlmə ilə deməк olmaz, sənin vətənin Afriкa tamam dəyişib. Səni əsir edən Atlantida çoxdan dənizi dibinə batıb. Min illərdirki, quldarlıq özü aradan çıxıb.

Z e r k a l o v. Amma orda indi də elə adamlar var ürəklərindən quldarlıq iştahası кeçir.

Q r o n a. Doğrumu, bax, Qrona bundan qorxur.

T e y m u r. Qorxma, Qrona.

Ş t u r m a n. Yaxşı, Qrona, biz indi, bax, o dağlara çıxmaq istəyirik. Bizimlə gedərsənmi?

Q r o n a *(tərəddüdlə).* Yaxşı, mən gedər.

Gəray, Zerkalov və Şturman gedirlər.

T e y m u r. İndi gedək gəmidən lazımı şeylər gətirək. Sonra gərək yola çıxaq *(Gedir).*

Q r o n a *(öz-özünə).* Hamı getdi. Ancaq onlar nəyi isə məndən gizlədirlər. Getdilər ki, danışsınlar, xəlvətcə. Ancaq Qrona anlayır hamısını.

Teymur gəlir. O, bir bağlama kəndiri Qronanın ayağı yanın atıb, yenə gəmiyə qayıtmaq istəyir.

Q r o n a. Bu nədir, Temor?

T e y m u r. Kəndir bağlısıdır, Qrona. Dağa çıxanda lazım olacaq.

Q r o n a. Məni də bağlayacaqlar?

T e y m u r. Bəs necə, kəndirsiz dağa dırmaşmazlar ki...

Q r o n a. Kəndir Qrona istəmir, Temor, Qrona kəndirsiz də sizinlə gedər. İstəmirəm məni bağlasınlar

T e y m u r. Mübahisəyə vaxtım yoxdur. Gedirəm uşaqlara kömək eləməyə, indi qalan şeyləri gətirəcəyik *(gedir).*

Q r o n a *(kəndir bağlısını yerdən götürür).* Deməli, bunlar məni kəndirlə bağlamaq istəyirlər. Özləri də deyirlər ki, yerdə elə adamlar var ürəyindən quldarlıq keçir. Ancaq Qrona ölər, kölə olmaz *(kəndiri yerə atıb meşəyə qaçır).*

Çiynində yığma çadır və alpinist külüngü olan Zerkalov gəlib çıxır. O, şeyləri yerə qoyub ətrafa boylanır.

Z e r k a l ov. Görəsən, Qrona hara getdi. Bəlkə gəmiyə qayıtdı? Yox, ola bilməz, Qrona! Bəlkə... *(o ətrafa boylanır).* Aman, o bataqlığa tərəf qaçır. Bədbəxt məhv olacaq. *(Onun ardınca yüyürür).*

Şturman gəlir. Onun arxasında iri bir yol çantası vardır. O. Çantanı yerə qoyub dikəlir.

Ş t u r m a n. Bəs bunlar şeyləri atıb hara gediblər? *(O, kötüyün üstündə əyləşir. Bu vaxt uzaqdan əcaib bir nərilti, bunun ardınca «kömək edin, kömək edin» sözləri eşidilir. Şturman kəmərindən mezon pistoletini çəkib səs gələn səmtə yüyürür)*

Gəray və Teymur söhbət edə-edə gəlirlər.

T e y m u r. Əşi, qəribə qızdır. Kəndiri görəndə əl-ayağı titrəyir. Məndən soruşur ki, əl-ayağımı bağlayacaqsınız?

G ə r a y. Bəs sən nə cavab verdin?

T e y m u r. Dedim lazım gəlsə sarıyacağıq. Bur a da o yana keçəcəyik. Kəndirsiz dağa çıxmazlar ki...

G ə r a y. Belə də bir az ehtiyatlı olmaq lazımdır, Teymur. Axı, Qrona quldarlıq dövrünün adamıdır. Hardan bilir ki, o gedəndən sonra yer üzərində necə dəyişikliklər olub.

Bu vaxt Şturman Zerkalovun qoluna girib onu gətirir. Onu paltarının bəzi yerləri cırılmışdır. Üz-gözündə qanlı caynaq izləri görünür. Qrona başını aşaqı dikərək onların dalınca gəlir. Şturman Zerkalovu əyləşdirir.

T e y m u r. Sizə nə oldu, Nikolay Afanasyeviç? Üz-gözünü pişik harada cırmaqladı? *(O cəld arxa çantasından tənzif çıxarıb Zerkalovun yarasını sarıyır).*

Ş t u r m a n *(Qronaya).* İyrənc ifritə. Bir gör sənin üzündən nələr olur? Axı hara qaçırsan, ay bədbəxt qızı? Bu boyda planetdə cəmi dörd adam var. Sən də onlardan üz döndərib qaçırsan? Soruşuram hara??

Z e r k a l o v. Onu danlamayın, İqor Konstantinoviç. Yəqin nə isə ehtiyatsız bir hərəkət eləmişik, o da bizdən ürküb.

Q r o n a. Qrona kölə olmayacaq. O, istəməz ki kəndirlə onu bağlasınlar.

T e y m u r. Bütün təqsirlər məndədir, İqor Kontantinoviç. Onları az danlayın.

Ş t u r m a n. Bu necə olub ki?

T e y m u r. O bayaq kəndiri görüb şübhələnmişdi. Gərək onu nəzakətlə başa salaydım ki, bu nə üçündür. Ancaq tələsdiyimdən ona dilucu cavab verib gəmiyə qayıtdım.

Ş t u r m a n. Adınızı həkim qoymusunuz. Özünüz də psixoloq hesab olunursunuz. Məgər belə ehtiyatsız iş tutarlar?

Z e r k a l o v . Onu az danlayın, İqor Konstatinoviç.Qronanın da xatirinə dəyməyin. Olan olub, keçən keçib. Mənim də yaralarım ciddi deyil. Səyahətimi davam etdirə bilərik.

T e y m u r. Sizə olmaz, Nikolay Afanasyeviç. Yara ciddi olmasa da sizə bakteriofaq iynəsi vurmaq lazım gələcək. Axı yaradan bədəninizə Venera bakteriyaları yoluxa bilər. Yürüşü heç olmasa bir gün təxirə salmalıyıq.

Z e r k a l o v . Oldu. Mən indi sizin xəstənizəm, elə halda sizin dedikləriniz mənim üçün qanundur. Tələsmək lazım deyil...

## İKİNCİ ŞƏKİL

"Kainat gəmisinin" içərisi. Zerkalov çarpayıda xəstə yatır. Ağ xalat geymiş Teymur onun çarpayısı başındadır. Başını aşağı almış Qrona kürsüdə əyləşmişdir. Qollarını çarpazlamış şturman otaqda var-gəl edir. Ayaq üstə dayanmış Gərayın baxışlarından narahatlıq duyulur.

Z e r k a l o v *(sayıqlayır).* Belə də uzun gecə olar. Görəsən səhər nə vaxt açılacaq. Zülmət məni boğur. Nina... haradasan əzizim... gəl... mənə bircə qurtum su ver.

Teymur kənara çəkilərək işarə ilə şturmanı və Gərayı öz yanına çağırır.

T e y m u r. Zerkalovun xəstəliyi ağırdır. Qəti tədbir görmək lazımdır.

Ş t u r m a n. Onun xəstəliyini öyrənə bildinmi?

T e y m u r. Bayaq onun qanını mikroskop altında yoxladım. Tetanus bakteriyalarına oxşayan mikroblar qırmızı qan kürələrini yeyib parçalayır. Belə getsə, xəstə çox tezliklə qan azlığından tələf ola bilər.

G ə r a y. Bəs müalicəni necə aparmaq olar?

T e y m u r. Düzü nə bioloji, nə də kimyəvi dərmanlar bir təsir göstərmir. Zerkalovu sağaltmaq üçün gərək dərman Venera bitkilərindən hazırlansın. Onu ilə hələlik bacarmırıq. Venera nabatatını elə yaxşı öyrənə bilməmişik.

Ş t u r m a n. Bəs konkret nə təklif eləyirsən?

T e y m u r. Hər şeydən qabaq xəstəyə qan vurmaq lazımdır.

G ə r a y. Buna niyə vaxt itirirsən, nə qədər lazımdır, götür. *(Qolunu çirmələyir)*

Ş t u r m a n. Mən daha sağlamam, Teymur.

T e y m u r. Yox, qardaşlar, qanı mən özüm verməliyəm. Tibbi кartoçкamıza baxmışam. Sizin qan qrupuz ona uyğun gəlmir. Siz çarpayının yanında olun, mən indi gəlirəm. *(Teymur qonşu otağa кeçir. Qrona yerindən qalxıb mütərəddid addımlarla Zerкalovun çarpayısına yaxınlaşır).*

Q r o n a. Sən xəstə olma, daha Niкolay. Qrona yerə qaçmaz. Qrona istəməz кi, o axmaqlıq eləsin, başqası xəstə olsun.

Ş t u r m a n (*astadan*). Cadugər iblis. Sənin səfehliyin bizə gör neçəyə oturur.

Teymur qonşu otaqdan gəlir. Onun qolu çirmələnmişdnr. Əl qanla doly iynə вardır. O, çarpayıya yanaşıb iynəni Zerкal qolyna вurur. Qrona diz çöкərəк onyn əlnni öpyr. Zerкaloв ya yaвaş кözyny açır. Teymur onyn başını diкəldnr. Şturman payıya yanaşıb Qronanı qaba hərəкətlə кənara çəкir.

Z e r к a l o v. Lazım deyil, İqor. Sənə yeganə xasiyyətim budur кi, onunla mehriban dolanın. Yadıda saxlayın кi, onyn həyatı məiimкindən çox qir lidir.

Ş t u r m a n. Siz nə danışırsınız, Niкolay Afanasyeвiç. Vəsiyyət nədir? heç gözləməzdim belə bədbin olasınız. siz yaşayacaqsınız.

Z e r к a l o v. Hamısını başa düşürəm, İqor Konstantinoviç. Xəstəyə təsкinliк lazımdır, ümidini itirməsin. Ancaq nə eləməк olar. Cəsarətli elmi ideyalar həmişə qurban tələb edir.

T e y m u r. Sizi belə bədbin bilməzdim, Niкo Afanasiyeviç.

Z e r к a l o v . Bu söhbətlərin indi yeri deyil, Teymur Ağayeviç. Sizə çox minnətdaram. Məni həyata qaytarmaq üçün ürəyinin qanını da əsirgəmədin. Əgər sağ qalsaydım, ömrümün axırına кimi sizin bu yaxşılığınızı unutmazdım. Yaxına gəlin, dostlar.

G ə r a y. Axı, siz... Niкolay Afanasiyeviç, həmişə bizi təmкinli olmağa çağırardınız. Hər кəlmə başı deyərdiniz кi, tələsməк lazım deyil. Bəs necə oldu silah götürmədən Qronanın dalınca tələsdinisiniz, indi də həyatdan кöçməyə tələsirsiniz?

Z e r к a l o v . Кədərlənməyin, qardaşlar. salamat Mosкvaya qayıdanda topladığım xırda-xuruş kolleкsiyanı professor Konovalova çatdırın. Ona deyin кi, tapşırığı axıra кimi yerinə yetirmədiyim üçün məni bağışlasın. Siz də məni bağışlayın, qardaşlar... Məni otlu-çiçəкli bir təpənin döşündə basdırın. Qəbri elə yerdə qazın кi, o mavi ulduzun... bi Yer кürəsinin işığı məzarımın üstünə çilənsin. Onda amansız şaxtalar da məni dondura bilməz.

Ş t u r m a n. Niкolay Afanasyeviç!..

Z e r к a l o v. Cəsarətli olun, qardaşlar. Bir də Qnoranın xatirinə dəyməyin. Unutmayın кi, onun həyatı hamımızdan qiymətlidir. O, qədim dünyanın sağ qalan yeganə övladıdır...

G ə r a y. Niкolay Afanasiyeviç!!!

T e y m u r. O, artıq кeçindi.

Ş t u r m a n *(hönkürərək).* Axı nə üçün həyatı bilməк mümкün deyil, nə üçün?

Q r o n a. O, öldü? Yox, olmaz, Qrona istəməz. Onun yerinə başqası ölsün. Niкolay, gör bir Qrona necə axmaqdır, necə pisdir. O, niyə yaşayır *(çarpayının yanında diz çöкüb ağlayır).*

Bu zaman qəbuledicinin üstündəкi mavi neon lampası yanıb-sönməyə başlayır.

G ə r a y. Saкit olun, İqor Konstantinoviç, görürsünüzmü Yer bizimlə danışmaq istəyir. Anamız Yer bizi unutmamışdır. *(O, qəbuledicinin düyməsini burur. Otağa səs yayılır):*

— Kainat gəmisi, Kainat gəmisi, bizi eşidirsinizmi? Venera gəmisinin кapitanı Rasimdir. Gəmi Venera planetinin dövrəsinə hərlənir. Harda olduğunuzu bildirməк üçün bizə siqnal göndərin, eşidirsinizmi, siqnal göndərin.

G ə r a y *(ağzını miкrofona tutaraq).* Venera, venera, sizi aydın eşidiriк. Danışan Kainat gəmisidir, sizi aydın eşidiriк. Yerimizi tapmaq üçün sizə pozitiv siqnalı göndəririк, eşidirsinizmi?

Qəbuledicidən yeкnəsəq çiyiltilər eşidilir. Bunun ardınca çöldən də reaкtiv mühərriкin uğultusunu xatırladan səs ucalır. Üzlərdə solğun bir təbəssüm görünür.

Ş t u r m a n *(Zerкalovun çarpayısı yanında diz çöкür).* Oyan, Niкolay Afanasyeviç, qalx qardaşım, yeni eкspedisiya gəlir. Onları qarşıla, qardaşım..

## ÜÇÜNCÜ ŞƏKİL

Ön planda «Venera» gəmisi. Bir qədər uzaqda isə «Kainat gəmisi görünür. Kosmonavt paltarı geymiş Gəray və Rasim söhbət edirlər.

R a s i m. Yadındadırmı, Gəray, bir zamanlar şimal qütbünü də belə öyrənirdilər. Bir екspedisiya qayıdan кimi başqa екspedisiya onları əvəz edirdi. İndi кosmonavtiка institutunun proqramına əsasən Venera da elə bu qayda ilə öyrəniləcəк. Veneraya hər iкi yüz iyirmi beş gündə bir yeni екspedisiya gələcəк. Köhnələr gəldiкləri gəmi ilə də geri dönəcəklər.

G ə r a y. Deməli, biz də кöhnələrdəniк.

R a s i m *(gülümsəyir).* Bəli, hər şeydə: həm dostluqda, həm işdə, həm də təcrübədə. İndi bütün sizin gördüyünüz elmi işin nəticəsini səbrsiz gözləyir.

G ə r a y. Bəli, gözləyirlər... Yəqin Niкolay Afanasyeviçin də yolunu gözləyirlər. Ancaq... *(götürür)*

R a s i m. Neyləməк olar, Gəray, doğrudan da işlər, böyüк məqsədlər, əziyyətsiz başa gəlmir

G ə r a y. Barı siz ehtiyatlı olun. Rasim qurban nəyə gərəkdir.

R a s i m. Dünyada əbəs şey yoxdur. Əbəs görülən işlər sonra adama ibrət dərsi olur. Gəray, çox vaxt tərlə bərabər qan da tökmək lazım gəlir. Bunsuz iş keçmir.

G ə r a y. Hər halda ehtiyat igidin yaraşı *(saata baxır).* Yola düşmək vaxtıdır, görəsən bizimkilər harda qaldı?. .

R a s i m. Harda olsa indi gəlib çıxarlar. İstəyirsən bir çağıraq. *(O, böyründən asılmış kiçik mikrofonu dodaqlarına yaxınlaşdırır)* İqor Konstantinoviç, vaxt keçir. İki saatdan sonra siz yola düşməlisiniz.

Yubanmaq olmaz. *(Quraqlıqdan eşidilən cavabı dinləyir)* Aha, on dəqiqədən sonra burad olacaqlar.

Ş t u r m a n, T e y m u r və Q r o n a gəlirlər.

T e y m u r *(Rasimə).* Balam, sizinkilərin başı səyahətə yaman qarışıb. Venera onları necə eləyibsə, heç bizi ötürməyə də gəlmədilər.

Ş t u r m a n. Heç olmasa Zerkalovla axırı! dəfə vidalaşdıq. Nikolay Afanasyeviçin qəbri üstdə ilk çiçəklər bitmişdir.

T e y m u r. Doğrudan da təbiətin qəribə qanunları var, Gəray. Canlının biri həlak olur, dünyadan köçür, başqa bir canlı isə həyata can atır, yaşam tələsir. Zerkalovun qəbri üstündə gördüyüm sarı çiçək mənə çox qəribə təsir bağışladı. Ona bir şer də həsr elədim. Oxuyum, bir görün, necədir.

G ə r a y. Oxu görək!

T e y m u r *(şeri oxuyur) :*

Payız günü qəbristana çıxmışam.
Bir sükut var, hər tərəfdə bax dərin.
Dayanmışam, qəmli, halı pərişan,
Bir məzara tikilmişdir nəzərim.
Görən kimdir, qəbrdəki... bir soraq
Verən yoxdur, baş daşı da itibdir,
Onun quru torpağında indi bax
Bircə dənə zəncirotu bitibdir.
Zəncirotu! Söylə hansı bir külək
Bura sənin toxumunu gətirdi?
De bir hansı bağban zəhmət çəkərək
Qayğı ilə bu torpaqda bitirdi?

Əsən külək onu asta titrədir,

Sanki deyir: təbiətdir bu bağban!

Odur dostum birisini məhv edib,

Digərinə həyat verib yaşadan!

G ə r a y. Şer pis deyil, Teymur. Ancaq göylər fəth eləyən, ulduzlara qanad gərən bir qəhrəman üçün sönük şerdir.

T e y m u r. Vaxt ötür, uşaqlar, eksponatları gəmiyə daşıyaq. Bir saatdan sonra yola düşməliyik.

T e y m u r. Gələndə də dörd nəfər idik, qayıdanda da. Mərhum Nikolay Zerkalovun yerini Qrona tutacaq.

Ş t u r m a n. Məsəl var ki, qaz uçdu, qarğa qondu.

Q r o n a. Yox, yox, mən sizinlə Yerə qayıtmaz. Orda heç kim Qronanı gözləmir. Nikolayın yolunu arvadı gözləyir. O, raketin qabağına gələcək, bəs ona Qrona nə deyər?

G ə r a y. Bəsdir, Qrona, yaralı ürəyimizi təzədən göynətmə. Yola düşmək lazımdır.

T e y m u r. Salamat qal, Rasim. İki yüz iyirmi beş gündən sonra biz yenə görüşəcəyik. Ancaq Venerada yox, Yerdə (görüşürlər).

Ra s i m. Yadıma Konstantin Eduardoviç Siolkoviskinin bir sözü düşdü. O, deyirdi ki, Yer insanın beşiyidir. Ancaq bəşəriyyət həmişə beşikdə yaşaya bilməz, gec-tez uçub günəş ətrafındakı planetlərdə məskən salacaq.

G ə r a y. Elədir, Rasim, biz yerdən qanadlanıb bura uçmuşuq. Deməli, hələlik günəşin övladlarıyiq. Uzaq ulduzlar isə yolumuzu gözləyir.

R a s i m. Bəli, uzaq ulduzlar yolumuzu gözləyir.

T e y m u r. Sağlıqla qalın...

**PƏRDƏ**

## KİTABIN İÇİNDƏKİLƏR

Qeyb olmuş səslər.................................. 3
Qəribə yaddaş ......... ..........................11
Amansız hakim ................................... 21
Fırtına okeanı susur...... . ....................26
Qara paltarlı adam................................ 33
Buluddan darman . .............................. 38
Daş qoğal......................... .. .............. 43
Bəxt ulduzu.......................................... 50

Orta və böyük yaşlı uşaqlar üçün

Redaktoru *G .həsənzadə*. Rəssamı *E. hyseynov*. Bədii redaktoru *F. Quliyeva*.

Texniki relaktoru *S.Bağırova* Korrektorları *M. Muradova*,

*Elmira Qulam qızı*.

Yığılmağa verilmiş 31/VIİI-1964-4\: il Çapa imzalanmış 15 X l-İVi 1964-cü il. FQS5342. Kağız formatı 84X1 Fiziki çap vərəqi 2.75. Şırti ıı ç. v 4,51 Uçot nəşr vərəqi 4,6. Sifariş .V 678. Tirajı 7.000 Qiymət 14 qəp.

Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, L» 4.

Azərbayçan SSR Nazirlər Soveti Dövlət Mətbuat Komitəsinin 26 komissar adına mətbəəsi, Bakı, Əli Bayramov kuçəsi. № 3.